Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi

F. Köçərli adına Respublika
Uşaq Kitabxanası




# Ümumdünya Turizm Günü

**27 sentyabr Ümumdünya Turizm Günü münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün metodik vəsait**

Bakı - 2022

**Tərtibçi:** **Ruhiyyə Məmmədli**

**İxtisas redaktoru və buraxılışa məsul:** **Şəhla Qəmbərova**
*Əməkdar Mədəniyyət işçisi*

**Ümumdünya Turizm Günü -** münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait tərt.ed. Ruhiyyə Məmmədli ixt.red. və burax. məsul Ş. Qəmbərova; - Bakı: F. Köçərli ad. Respublika Uşaq Kitabxanası, 2022. - 59s.

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2022**

## Giriş

***"Azərbaycan ən qədim zamanlardan dinlərin, dillərin və mədəniyyətlərin təmas və ünsiyyət yeri olmuşdur. Çünki Azərbaycan xalqı yüksək mədəniyyətə malikdir. Yüksək mədəniyyətə malik olan xalq həmişə irəli gedəcək".***

Ümummilli lider Heydər Əliyev

Ümumdünya Turizm Günü 1980-ci ildən bəri BMT-nin Beynəlxalq Turizm Təşkilatı (BMBTT) tərəfindən hər il 27 sentyabr tarixində qeyd olunur. Bu günün məqsədi beynəlxalq aləmdə turizm haqqında məlumatları artırmaq və bunun sosial, mədəni, siyasi və iqtisadi tərəflərini dünya miqyasında nümayiş etdirməkdir. Ölkəmizdə Ümumdünya Turizm Günü 2001-ci ildən, Azərbaycanın Beynəlxalq Turizm Təşkilatına üzv olduğu vaxtdan qeyd olunur. Dünya ölkələrində qeyd olunduğu kimi, hər il Azərbaycanda da 27 sentyabr - Ümumdünya Turizm Günü kimi qeyd olunur. Həmin gün Ümumrespublika Daxili Turizm Konfransları da keçirilir. Azərbaycanda ilk dəfə olaraq 2003-cü ildə 26 sentyabr tarixində 1-ci Turizm Filmləri Festivalı keçirilmişdir. 2005-ci ildən başlayaraq məşhur xarici televiziya kanallarında respublikanın turizm potensialını əks etdirən reklam çarxları yayımlanır. 2002-ci ildən başlayaraq Bakıda hər il Beynəlxalq Turizm və Ümumrespublika Daxili Turizm Sərgiləri keçirilir. Son illər ölkəmizdə turizm sektoru sürətlə inkişaf edir. Qeyd edək ki, Azərbaycanın zəngin təbiətə malik olması ölkəmizdə bu sahənin inkişafı üçün əlverişli imkanlar yaradıb.

Azərbaycanda turizmin maraqlı tarixi var. İstər qədim, istərsə də orta əsrlərdə Asiyanın mərkəzi ərazilərindən, uzaq Çin və Hindistandan Qara və Aralıq dənizlərinin sahillərinədək uzanan karvan yolları Azərbaycan ərazisindən keçib gedirdi. Tarixi nöqteyi-nəzərdən Azərbaycanda turizmin inkişafını bir neçə mərhələyə bölmək olar. Birinci mərhələ qədim dövrlərdən başlamış orta əsrləri əhatə etməklə XIX əsrin əvvəllərinədək davam edib. Bu mərhələnin spesifik xüsusiyyətləri turizmin "səyahət", "səyyahçılıq" anlayışı ilə əlaqəlidir. Qədim və orta əsrlərin məşhur səyyahları müxtəlif məqsədlər üçün Azərbaycana səyahəti başa vurub vətənlərinə qayıtdıqdan sonra ölkəmizin gəzməli, görməli yerləri, təbiəti haqqında məlumat veriblər.

İkinci mərhələ XIX əsrin əvvəllərindən XX əsrin əvvəllərinə - Xalq Cümhuriyyəti dövrünə qədərki tarixi əhatə edir. Bu mərhələ Azərbaycanda turizmin, daha çox ekskursiya səviyyəsində təşkili üçün ilk özəl birliklərin, cəmiyyətlərin yaradılması ilə səciyyəvi olub. 1908 - ci ildən etibarən Azərbaycanda müasir turizmin ənənələri özünü göstərməyə başlayıb.

"Üçüncü mərhələ sovet dövrünü 1920-1991-ci illəri əhatə edir. Bu mərhələdə Azərbaycanda turizm mütəşəkkil fəaliyyət sahəsinə çevrilib. Həmin dövrdə Azərbaycan keçmiş SSRİ məkanında qabaqcıl turizm marşurutlarından biri kimi tanınırdı. 1922 - ci ildə Bakıda ilk ilk ekskursiya dərnəkləri fəaliyyətə başlayıb. 1950 - ci ildə Bakı Turist Bazası yaradılıb. Bir müddət sonra isə həmin qurum Azərbaycan Turizm və Ekskursiyalar idarəsinə çevrilib. 60-70-ci illərdə respublikada turist bazaları, yeni istirahət mərkəzləri yaradıldı.

Dördüncü mərhələ (1991-ci ildən sonra) ölkəmizin müstəqillik dövrünü təşkil edir. Yeni tarixi şərait Azərbaycanda turizmin beynəlxalq standartlar əsasında qurulmasına geniş imkanlar açıb. Turizm ölkə həyatının mühüm sahələrindən birinə çevrilib, bu sahənin inkişafı məqsədi ilə əsas prioritetlər müəyyənləşdirib.

Zəngin flora və faunası, coğrafi mövqeyi, gözəl təbiəti, tarixi abidələri Azərbaycanın turizmin inkişafı üçün böyük potensiala malik olduğunu göstərir. Turizm sahəsində Azərbaycanın rəqabət imkanları çox yüksəkdir. Təbii sərvətlərimiz, rəngarəng iqlimimiz, zəngin mədəniyyətimiz, çoxəsrlik tariximiz turizm məhsulu yaratmaq üçün mühüm bazadır.

Turizmin inkişafı indi bütün dünya ölkələrinin diqqət mərkəzindədir. Hətta bir sıra dövlətlərin büdcəsini bu sahədən gələn gəlir təşkil edir. Belə ki, turizm müasir dünya iqtisadiyyatının ən gəlirli sahələrindən biridir. Təbii-coğrafi baxımdan əlverişli mövqedə yerləşən Azərbaycan da turizm sahəsində müəyyən nailiyyətlər əldə etməyə çalışır. Çünki ölkəmizdə bu sahənin inkişafı üçün kifayət qədər potensial var. Üstəlik, Azərbaycanın həyata keçirdiyi uğurlu siyasət nəticəsində ölkəmiz turizm sahəsində böyük naliyyətlər qazanır və gün-gündən inkişaf edir. Bütün regionlarımızda yeni turizm obyektləri tikilir, mədəni-tarixi qoruqlar bərpa edilir. Təbii resurslar və mədəni irsin turizm patensialı, Azərbaycanın dünya turizm bazarına inteqrasiyası üçün şərait yaradır və ölkədə turizmin inkişafında mühüm rol oynayır. Belə şərait əhalinin məşğulluğunu və turizmlə bağlı sahələrin inkişafını sürətləndirir. Statistik nəticələr göstərir ki,

Azərbaycanın turizm məhsuluna maraq artır, bu da ölkəyə gələn turistlərin say artımına müsbət təsir göstərir. İş adamları, idmançılar, alimlər, eksterimal istirahəti sevənlər, həmçinin ölkənin tarixi və bu günü ilə maraqlananlar üçün respublikamız əsl turizm mərkəzidir. Ölkə ərazisinin 50 faizini dağlar təşkil edir. Belə relyef xarici turistləri daha çox cəlb edir. Macəralı turizm dünya turizm bazarında böyük tələbat doğurur. Bu cür təbii gözəlliklərdən savayı Azərbaycan qədim tarixi abidələrlə də zəngindir. Onu da qeyd edək ki, İpək yolunda tranzit turların təşkil olunması olduqca aktualdır. Belə ki, bu yol Azərbaycanın Yaponiya, Malaziya və Avropa dövlətlərinin maraq dairəsinə çevrilməsinə səbəb olur. Yer kürəsində mövcud olan 11 iqlim qurşağından 9-u Azərbaycan ərazisində yerləşir. Azərbaycan bu xüsusiyyətinə görə dünyada yeganə ölkədir. Ölkənin təbiəti müstəsna dərəcədə rəngarəng və nadirdir. Turizm mövzusu hər zaman dövlət rəhbərliyinin nəzarətindədir. Belə ki, 1999-cu il, 4 iyun tarixində ümummilli lider Heydər Əliyevin sərəncamı ilə «Turizm haqqında» Azərbaycan Respublikasının Qanunu qəbul edilmişdir. Qanun turizmin mühüm məsələlərini əks etdirən 17 maddədən ibarətdir. Bundan əlavə 2007-ci ildə "Turizm haqqında" Azərbaycan Respublikasının Qanununa dəyişiklik və əlavələr edilməsi barədə" Azərbaycan Respublikasının 2007-ci il 5 iyun tarixli 374-IIIQD nömrəli Qanununun tətbiqi ilə əlaqədar bəzi qanunvericilik aktlarına dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikasinin Qanunu qəbul edilmişdir. Təsadüfi deyil ki, 2011-ci il hörmətli prezidentimiz İlham Əliyev tərəfindən "Turizm ili" elan olunmuşdur. Bununla yanaşı "2010-2014-cü illər üçün Xalq Yaradıcılığı

Paytaxtları” proqramına əsasən, 2011-ci ildə Şabran şəhəri “Əfsanələr Paytaxtı”, Lənkəran şəhəri “Folklor Paytaxtı”, İsmayıllı şəhəri isə “Sənətkarlıq Paytaxtı” elan olunub. Bu üç şəhərin “Xalq Yaradıcılığı Paytaxtları” elan olunması ilə əlaqədar il ərzində Şabran, Lənkəran və İsmayıllıda nominasiyalara uyğun olaraq təntənəli mərasimlərin, respublika və beynəlxalq səviyyəli elmi-praktiki konfrans, dəyirmi masa, konsert, müsabiqə, festival, sərgi, yarmarka, və s. tədbirlərin təşkili nəzərdə tutulub. Prezident öz çıxışında Azərbaycanın bölgələrində mehmanxana işi ilə bağlı çox böyük işlər görüldüyünü, “Şahdağ” qış-yay xizək kurortu, xizək infrastrukturu yaradıldığını qeyd etmişdir. Prezident çıxışında bildirmişdir: Bizim gözəl təbiətimiz var, Xəzər dənizimiz, gözəl dağlarımız, çaylarımız, meşələrimiz bizim böyük sərvətimizdir. Elə etməliyik ki, bu sahədə böyük və gözəl nəticələr görək".

## Keçiriləcək tədbirlər

Bildiyimiz kimi 27 sentyabr Ümumdünya Turizm Günüdür. Bununla əlaqədar bir sıra müəssisələrlə yanaşı kitabxanalarda da silsilə tədbirlərin keçirilməsi nəzərdə tutulur. Kitabxanalarda keçiriləcək tədbirlər zamanı kitabxanaçılar oxucuları maarifləndirərkən daha çox ölkəmizi, onun bölgələrini, təbiətini, tarixini, tarixi abidələrini az yaşlılara və məktəblilərə tanıtmağı nəzərdə tutmalıdırlar. Bununla əlaqədar kitabxana işçiləri tərəfindən məktəblərdə kitab sərgilərinin təşkil edilməsi yaxşı nəticələr doğurar. Ölkəmizin müxtəlif regionlarından bəhs edən kitab sərgilərinin təşkili uşaqlarda yurdumuzun gözəlliklərinə maraq yaradar. Rayonlar arasında səyyar sərgilərin təşkil

edilməsi də məqsədəuyğundur. Belə ki, hər bir region öz rayonu haqqında qonşu rayonun oxucularını məlumatlandırır. Bununla yanaşı foto sərgilər də təşkil etmək olar. Hər bir kitabxana öz yerləşdiyi rayonun görməli yerlərinin, muzeylərinin tanınmış şəxsiyyətlərinin şəkillərini sərgidə nümayiş etdirə bilər. Hər bir kitabxanada yerləşdiyi regiona aid ədəbiyyatı (kitab, qəzet, jurnal, metodiki vəsaitlərindən) əks etdirən daimi sərginin təşkili olduqca əhəmiyyətlidir. Belə sərgilər kitabxanaya gələn oxucuların diqqətini cəlb edir. Oxucuların diqqətini cəlb etmək məqsədilə belə sərgiləri digər əyləncəli sərgilərlə qarşılıqlı şəkildə təşkil etmək olar. Bu məqsədlə ayrıca guşə təşkil olunmalıdır. Burada rayon haqqında ədəbiyyat nümayiş olunmaqla yanaşı, divarlarda rayonun gözəl guşələrinin fotoları, rəsmləri da asılır və tarixi abidələrin maketlərindən istifadə olunur. Sərgilərin təşkili zamanı kitabxanaçılar kitabxananın yerləşdiyi iqtisadi rayona aid sitatlardan, hikmətli sözlərdən geniş istifadə etməlidir. Nümunə olaraq Ümummilli liderimiz Heydər Əliyevin Naxçıvana dair söylədiyi sitatları sizə təqdim edirik: “Naxçıvan mənim ana torpağımdır. Müqəddəs Naxçıvan torpağı mənim üçün əziz bir yerdir. Mən bu torpağın qarşısında baş əyirəm. Naxçıvanın böyük və zəngin tarixi vardır. Bu tarixin dünya mədəniyyətinə, bəşər mədəniyyətinə böyük töhfələri olmuşdur. Naxçıvan haqqında mənim ürəyim o qədər doludur ki, nə qədər desəm yenə də tükənməz. Naxçıvanın qədim dövlətçilik tarixi vardır. Bu, Azərbaycanın dövlətçilik tarixidir.”

Sizə təqdim etdiyimiz bu sitatlarla yanaşı ulu öndərimizin Naxçıvan haqqında olan düşüncələrini öyrənmək məqsədilə onun söylədiyi sitatların yer aldığı forumu sizə təqdim edirik: [http://forum.azeri.net/heyder-eliyevin-naxcivan-haqqinda-dediyimudrik-kelamlar-t4335.html](http://forum.azeri.net/heyder-eliyevin-naxcivan-haqqinda-dediyimudrik-kelamlar-t4335.html)

**Kitab müzakirəsi**

**Kitabxanada Ümumdünya Turizm Günü münasibətilə bu mövzudan bəhs edən kitabların müzakirəsinin keçirilməsi məqsədəuyğundur**




"Naxçıvan" Universitetinin dosenti, iqtisad üzrə fəlsəfə doktoru Əli Cabbarovun "Turizm marşrutları və ekskursiya işinin təşkili" adlı dərs vəsaiti Turizm və hotelçilik ixtisası üzrə eyniadlı fənnin tədrisi məqsədilə hazırlanmışdır. Kitab üç fəsildən ibarətdir. Birinci fəsildə turizm marşrutları və onların yaradılması, ikinci fəsildə ekskursiya fəaliyyəti və onun təşkili üzrə nəzəri məsələlərə dair 15 dərs mövzusu təqdim olunur.

Dərs vəsaitinin üçüncü fəslində müvafiq fotoşəkillərlə Naxçıvan Muxtar Respublikasının turizm ehtiyatları timsalında konkret tur nümunələri və təqdimat reseptləri, həmçinin ekskursiyalar zamanı çoxişlənən turizm terminləri verilib. Nəşrdə turizm marşrutlarının davamlılığı, onların texniki və iqtisadi cəhətdən əsaslandırılması, ekoloji

maraqların, yerli əhalinin mənafelərinin qorunması və təhlükəsizlik məsələləri əksini tapıb. Kitabdan turizm və səyahət məsələləri ilə maraqlananlar da faydalana bilər.




"Azərbaycanda dini icmalara maliyyə yardımı göstərilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 27 noyabr 2014-cü il tarixli, 892 nömrəli Sərəncamına əsasən, Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinə ayrılmış vəsait hesabına Tərxan Paşazadənin müəllifi olduğu "Azərbaycanda dini turizm" adlı kitab nəşr edilib. Bir neçə mövzudan ibarət olan kitab fəal istirahətin geniş yayılmış və ən kütləvi növü olan turizm haqqında ümumi məlumatla başlayır. Qeyd olunur ki, bütün dünyada olduğu kimi Azərbaycanda da son dövrlərdə turizmin müxtəlif növlərinin inkişafına xüsusi önəm verilir. Həmçinin bildirilir ki, hazırda turizmin ölkəmizə xas ola biləcək əsas növləri mədəni, biznes, sağlamlıq, ekoloji, istirahət, əyləncə, dağ, qış, xizək, çimərlik, idman, kənd, yaşıl, ov, tarix, dini turizmdir ki, bu kitabda oxucularlar sonuncu növ - dini turizmlə bağlı məlumatlar əldə edə bilərlər. Müəllif Azərbaycanın dini turizm potensialı ilə bağlı ümumiləşdirilmiş formada oxucuları məlumatlandırmaqla,

ölkəmizlə bağlı 2006-2017-ci illərdə qeydə alınmış rəsmi statistik göstəriciləri də təqdim edib. Kitabın ən maraqlı mövzularından biri kimi isə Azərbaycanlı zəvvarların xarici səfərləri mövzusunu qeyd edilə bilər. Dini turizmlə bağlı Azərbaycan qanunvericiliyinə də diqqət çəkən müəllif son mövzuda müvafiq sahədə "daha nələr edilməlidir?" sualına cavab axtarıb. Qeyd edək ki, kitabın müəllifi Tərxan Paşazadə 1982-ci ildə Sumqayıt şəhərində anadan olub. O, Bakı Slavyan Universitetini regionşünaslıq (bakalavr) və Sumqayıt Dövlət Universitetini (magistr) ixtisasları üzrə bitirib. 2007-ci ildən isə AMEA-nın Fəlsəfə və Siyasi-Hüquqi Tədqiqatlar İnstitutunun dissertantı olub. 2006-cı ildən Vikipediya könüllüsü olan Tərxan Paşazadə 2009-cu ildən Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində işləyir, dövlət qulluğunun kiçik müşaviridir. "Azərbaycanda dini turizm" kitabı müəllifin işıq üzü görən dördüncü kitabıdır.

Ümumdünya Turizm Günü ilə əlaqədar olaraq bir-birindən maraqlı, həm də Respublika səviyyəsində müsabiqələr də təşkil etmək olar. Belə ki, bu kimi müsabiqələr əvvəlcə rayonlarda keçirilərsə qaliblər F. Köçərli adına Respublika Uşaq Kitabxanasında təşkil olunacaq həlledici müsabiqədə iştirak edə bilər. Kitabxanamızda təşkil olunmuş müsabiqədə regionlar üzrə qaliblər arasında fərqlənənlər Respublika üzrə müsabiqədə iştirak edə bilərlər. Oxucularımızın sevərək iştirak etdiyi müsabiqələrdən biri də **şeir müsabiqəsi**dir. Hər bir rayonun kitabxanası tərəfindən təşkil olunacaq bu müsabiqədə əlaqədar rayona həsr olunmuş şeirlər iştirakçıların ifasında

dinlənilir. Şeiri ən gözəl və ifadəli münsüflərə çatdıran iştirakçı qalib elan olunur. Onu da qeyd edək ki, müsabiqədə təqdim etmək üçün uşaqlara şeirlər yaş xüsusiyyətlərindən asılı olaraq təqdim edilməlidir. Azyaşlı oxuculara qəliz şeirlər deyil sadə dildə yazılmış şeirlər vermək lazımdır. Bu məqsədlə "Quba bağları nəğməsi", "Quba nəğməsi" (Bayrami), "Ordubada gedirəm" (Xan Ordubadi), "Bakı", "Sabirabad", "Qazax", "Zəngilan" (Eldar Məmmədov), "Şəkidə" (Xosrov Xan Sədri), "Naxçıvanım" (Məhərəm Ağalaroğlu), "Mən - Azərbaycanam!", "Azərbaycan", "Çaylarımız" Zirvələrdən üzü bəri gəlir məğrur Azərbaycan!, "Vətən" (Xəlil Rza), "Azərbaycan", "Dağlar" (Səməd Vurğun) adlı şeirləri sizə təqdim edirik. Müsabiqənin maraqlı olması üçün onu ssenari əsasında təşkil etmək daha yaxşı olar. Belə nümunələrdən birini sizə xatırladırıq:

(*Aparıcı və bir dəstə uşaq səhnəyə daxil olur.)*

**Aparıcı:** Dostlar, imtahanları da müvəffəqiyyətlə verdik. İndi yay tətilimiz başlayır. Gəlin yurdumuzun gəzməli-görməli yerlərinə istirahətə gedək.

**I Uşaq:** Məncə Gəncəyə gedək, uşaqlar. Gəncə çayın, Göygölün gözəlliyinə söz ola bilməz. Yaxşıca istirahət edərik. (Gəncə ləhcəsi ilə danışır)

**II Uşaq:** Gəncəyə niyə gedirik ki? Məncə bizim rayona gedək. (Şəki ləhcəsi ilə danışır.) Babamla nənəm orada yaşayır. Biz də bir neçə gün orada qalarıq.

**III Uşaq:** Məncə Naxçıvana getsək yaxşı olar. Mən keçən il ailəmlə birlikdə Naxçıvanda istirahət etmişəm. Gözəl dağları, qədim abidələri, muzeyləri, meyvəli bağları!

(Başlayır oxumağa: Ey könül mülkünün barı Naxçıvan) Bəh-bəh bir sözlə bu diyarın gözəlliyinə söz ola bilməz.

**Aparıcı:** Yox uşaqlar, bu yolla biz bir qərara gələ bilməyəcəyik. Hər biriniz istəyirsiniz ki, istirahətə onun sevdiyi rayona gedək. Gəlin kiçik bir şeir müsabiqəsi keçirək. Kim qalib gəlsə onun təklif etdiyi yerə ekskursiya təşkil edəcəyik. Buyurun uşaqlar, öz məharətinizi göstərin.

( I Oxucu Əhməd Cavadın "Gəncəyə ithaf" etdiyi şeiri söyləyir.)

I Oxucu: Beş il bağlarında gəzdim, əyləndim,
İçdikcə doymadım suyundan, Gəncə!
Sənsən salan məni bu dadlı dərdə,
Boynumda borcun var, verimmi, Gəncə?!
Yaşıl bağlarının gül xiyabanı,
Cənnətdən də bil ki, yaxşıdır, Gəncə!
Güllərinin rəngi behiştdən dadlıdır, Gəncə!
Ey qayğılar görüb, günlər keçirən,
Haqqında dastanlar yazıla, Gəncə!
Yaşıl bağlarında gül xiyabanı,
Cənnətdən gözəldir, yaxşıdır, Gəncə!
Adına dastanlar yazıla, Gəncə!

*( II Oxucu "Şəkidə" şeirini söyləyir.)*

II Oxucu: Bu güzarın qüdrətinə çox şükür
Şahdağın qoynunda varam Şəkidə
Sinəsi yaşıldı zirvəsi qardı
Baxıb ona nə xoşhalam Şəkidə.
Uşaqlığım, nazım düşdü yadıma
İlk baharım yazım düşdü yadıma.
Şux zarafat sazım düşdü yadıma
Dedim bir "Kərəmi" çalam Şəkidə.
Cəmi camaatı yaralı gördüm
Sonu ahu-vaylı qaralı gördüm
Vurğunun yazdığı maralı gördüm
Göylərə yetişdi nalam Şəkidə.

*(III Oxucu Məhərrəm Ağalarovun "Naxçıvanım" şeirini söyləyir. )*

III Oxucu: Bil, həyatın mənzərədir,
Göz bəbəyim Naxçıvanım.
Siyasətçi alimlərin
Vətənisən Naxçıvanım.
Abidələr diyarısan,
Ulu türkün baş tacısan,
Azərbaycan torpağısan
Ulu yurdum Naxçıvanım.

İgidlərin mərddir sənin,
Atabəylər Eldənizin,
Sıra dağın, Əlincənin
Vətənisən Naxçıvanım.
Ordubadda soyuq dağın,
Badamlı dərman suların,
İgid olub hər övladın
İgid elim Naxçıvanım.

Müsabiqənin təşkil olunacağı regionun adından asılı olaraq, ("Naxçıvanım", Şuşa, "Muğam beşiyim Qarabağ", "İgidlər oylağı Şəki" və s.) **rəsm müsabiqələri** də təşkil etmək olar. **Rayonlara ekskursiyalar**ın təşkili də oxucularda maraq doğurar. Ekskursiya rəhbəri rayon haqqında hərtərəfli biliyə malik olmalıdır. O rayonun tarixini ədəbiyyatını, coğrafiyasını bilməli, tanınmış və görkəmli şəxsiyyətlərini yaxşı tanımalıdır. Ekskursiya zamanı qonaqlar ekskursiya rəhbərinin nəzarəti altında rayonun muzeylərini, gözəl təbiətli ərazilərini gəzir və bu haqda məlumatlandırılır. Belə ekskursiyalar qarşılıqlı şəkildə təşkil oluna bilər. Belə ki, ekskursiya təşkil olunmuş rayonun oxucuları növbəti dəfə qonaqların rayonuna ekskursiyaya gedə bilər. Beləliklə də oxucular ölkəmizin rayonları haqqında ətraflı məlumatlandırıla bilər. Kitabxanaçılar ekskursiyalar təşkil edən zaman ekskursiyanı planlı şəkildə hazırlamalıdırlar. Belə ki, vaxtaşırı (hər ay, hər həftə) bir rayona ekskursiya təşkil edərək aktiv oxucuları ölkənin gözəl guşələri ilə yaxından tanış etmək olar. Belə ekskursiyalara avtobusla və ya qatarla getmək olar. Ekskursiyalara ***"Şən qatarla gəzinti",***

***"Möcüzəli səyahət", "Odlar yurduna səyahət", "Şuşa bizi gözləyir", "Qarış-qarış Azərbaycan"*** kimi maraqlı adlar da vermək olar. Gəzintini maraqlı etmək məqsədilə yol boyu ekskursiya rəhbəri oxuculara getdikləri rayon haqqında, onun tarixi, onun gözəl guşələri haqqında məlumat verir. Bundan əlavə həmin rayon haqqında kitabları iştirakçılara tövsiyyə edir. Yaxşı olar ki, gedilən rayon haqqında **bukletlər** hazırlayaraq ekskursiya iştirakçılarına paylanılsın. Bukletlərdə rayonun guşələrinin kitabxana və muzeylərinin, tanınmış şəxsiyyətlərinin şəkilləri və onlar haqqında qısa məlumat verilməlidir. Bütün bunlarla yanaşı rayon kitabxanaları arasında qiyabi olaraq əlaqə yaratmaq mümkündür. Belə ki, bunun üçün canlı olaraq **kitabxanalar arasında bağlantı** yaradılır. Çəkiliş rayonun gözəl təbiətli yerlərindən, muzeydən və ya birbaşa kitabxanadan yayımlanır.




Şuşanın erməni işğalından
azad edilməsinə həsr olunur
ŞUŞA
Azərbaycanın
mədəniyyət
paytaxtı
Biblioqrafiya
Şuşa


İLQAR HÜSEYNOV
NİGAR ƏFƏNDİYEVA
TURİZMİN ƏSASLARI


Sabir Rəhimov
TURİZM
-EKSKURSİYA
İŞİNİN
TƏŞKİLİ


Flora Xəlilzadə
Ruhumuzun ünvanı
ŞUŞA


Ş.Ə.Heydərov
Turizmdə
nəqliyyat xidmətlərinin
təşkili


Polish
Places
in Baku
Baku


NAXÇIVAN


MƏFTUN EDƏN
ŞƏHƏR
ЗАЧАРОВАННЫЙ ГОРОД


GOBUSTAN –
A BOOK
OF MILLENNIA
QOBUSTAN –
MİNİLLİKLƏRİN
KİTABI

## Konfrans




Kitabxanalarda Ümumdünya turizm günü münasibətilə yuxarı sinif şagirdlərinin, tələbələrin iştirakı ilə **"Azərbaycanın mədəniyyət paytaxtı Şuşa müasir gəncliyin gözü ilə"** adlı oxucular konfransı da təşkil etmək mümkündür. Konfransdan öncə onun proqramı tərtib olunmalı, konfransın keçiriləcəyi dəqiq vaxt müəyyən olunmalıdır. Proqramda konfransda çıxış edəcək qonaqların; ədəbiyyatşünasların, tarixçilərin və şagirdlərin adları, onların çıxış edəcəkləri mövzular, tədbirin keçiriləcəyi məkan və zaman qeyd olunur. Konfrans zamanı Şuşanın tarixinə yaxından bələd olan jurnalist, yazıçı və tarixçilərin çıxışları dinlənilir. Kitabxanada konfransın mövzusunu əhatə edən sərgi təşkil olunur. Tədbirin əvvəlində iştirakçılara Şuşa

haqqında slayd təqdim olunur. Metodist Azərbaycan musiqisinin məbədi Şuşa haqqında ətraflı məlumat verir. Sonra isə söz iştirakçılara verilir.

**Metodist:** Şuşanın Azərbaycan xalqının qəlbində özünəməxsus yeri və dəyəri var. Bu qədim şəhəri təsadüfən **Azərbaycanın mədəniyyət paytaxtı** adlandırmırlar – Şuşa musiqi, ədəbiyyat və xalçaçılığın mərkəzi, təbiət gözəllikləri və tarixi-mədəni irsin vəhdət tapdığı unikal məkandır.

**I iştirakçı:** Şuşa Azərbaycanın Dağlıq Qarabağ bölgəsində yerləşir. Azərbaycanın mədəniyyət paytaxtı, inzibati mərkəzlərindən biridir. Şəhərin təməlini ilk dəfə Qarabağ xanı olan Pənahəli Xan qoymuşdur. Məhz buna görə də Şuşa adı ilə yanaşı bu şəhərə Pənahabad da deyirdilər. Təbiətinin gözəlliyi ilə hər kəsi heyran edən Şuşa alınmaz qala idi. Şuşada 17 məhəllə vardı: Seyidli, Culfalar, Quyuluq, Çuxur məhəllə, Dörd çinar, Dördlər qurdu, Hacı Yusifli, Çöl Qala, Qurdlar, Saatlı, Köçərli, Mamayı, Xoca, Mərcanlı, Dəmirçilər, Hamamqabağı, Merdinli və Təzə məhəllələri idi. Hər bir məhəllənin hamamı, məscidi və bulağı tikilmişdi ki, insanlar üçün tam rahatlıq olsun. Şuşanın çiçəklənməsi XVIII əsrdən başlamışdı. Şuşa şəhəri bu zamanlar Azərbaycanın ən mühüm şəhərlərindən birinə çevrilmişdi. Onun dövrəsində böyük və güclü sədd çəkilib, çoxsaylı sənətkar məhəllələri yaradılmışdı. Eyni zamanda ticarət əlaqələri də genişləndirilmişdi.

Şuşalı tacirlər İran şəhərləri və Moskva ilə ticarət əlaqələri saxlayırdılar. Hətta burada Pənahabadi adlanan gümüş sikkə zərb edilirdi.

Şuşanı məşhur edən digər bir şey də buradakı insanların incənətə bağlı olması, incəsənətə üstünlük vermələri idi. Belə ki, XIX əsrin sonu və XX əsrin əvvəllərində Şuşa Qafqazın musiqi mərkəzinə çevrilmişdi. Hətta Şuşaya "Kiçik Paris", "Qafqazın sənət məbədi", "Azərbaycan musiqisinin beşiyi" və "Zaqafqaziyanın konservatoriyası" deyirdilər. Artıq XX əsrdən başlayaraq peşəkar musiqi təhsili daha geniş sahələri əhatə edərək, sistemləşdirilməyə və kütləviləşməyə doğru istiqamətlənmişdi. O dövrdə Azərbaycanda bəstəkar Üzeyir Hacıbəyovun böyük əməyi sayəsində peşəkar musiqi təhsilinin bünövrəsi qoyulur. Gözəl Şuşamızın başı bəlalı olmuşdur. Rus hökümətinin Azərbaycana soxulması nəticəsində xüsusi Dağlıq Qarabağ və İrəvanda çətin günlər başladı. 1905, 1920 və 1992-ci illərdə Şuşa üç dəfə tamamilə yandırılmışdır.

**II iştirakçı**: **Şuşanın təbiəti haqqında məlumat**

Azərbaycanın ən gözəl guşələrindən olan Şuşanın füsünkar təbiəti hər kəsi heyran edir. Gözəl Şuşamızın səthi dağlıqdır. Ən yüksək zirvəsi Böyük Kirs dağıdır ki, 2725 m-dir. Ərazisinin əksər hissəsi yayı quraqlıq keçən mülayim isti və qışı quraq keçən soyuq iqlim tiplərinə aiddir. Orta temperatur yanvarda −4 °C-dən −1 °C-yədək, iyulda 16–19 °C-dir. İllik yağıntı 700–800 mm-dir. Demək olar ki, Şuşanın iqlimi dəyişkəndir. Yağışlı hava şəraiti qəfildən günəşli ola bilər. Məşhur Qarqarçay bu ərazidən axır. Torpaqları qəhvəyi və qonur dağ-meşə, çimli dağ-çəmən tiplidir. Yüksək dağlıq sahələr subalp və alp çəmənlikləri ilə örtülmüşdür. Burada çəmənlər və kserofit kolluqlar görmək mümkündür. Şuşanın heyvanat aləmi də olduqca zəngindir. Meşələrində çox sayda ayı, canavar, cüyür, boz dovşan,

tülkü, qaban, turac, vaşaq, kirpi, porsuq, çöl pişiyi, bozqır qartalı, kəklik, göyərçin, qızıltac, arıquşaoxşar bığılca və s. görmək mümkündür. Bitki aləmi də xeyli zəngin olan Şuşanın havası çox təmizdir. İnsan buradakı havanı ciyərlərinə çəkməkdən doymur. Meşələrdə palıd, şərq fıstığı, qafqaz vələsi kimi keyfiyyətli ağac növləri üstünlük təşkil edir. Çirişli dağının aşağı hissəsində dəniz səviyyəsindən 1160–1210 m yüksəklikdə yamacın şimal baxarında meşəlikdə bir-birindən təxminən 100 m-ə qədər aralı məsafədə 30-a yaxın şabalıd ağacları da bitir.

Meşə altında müxtəlif kol cinsləri: fındıq, murdarça, alça, göyəm, gərməşov, yemişan , əzgil , itburnu və s. bitir. Meyvə ağacları ilə də zəngin olan Şuşada ilin müxtəlif fəsillərində vələs, ağcaqayın , gilas , göyrüş və daha çox ağac növlərinin meyvəsindən istifadə etmək mümkündür. Ərazi zəngin faunaya, bitki aləminə malik olan Şuşa əsl istirahət və yaşanılması mükəmməl hesab olunan bölgələrimizdəndir.

**VII iştirakçı:** Dünyada bir neçə şəhər var ki, musiqi onun hər daşına, qalasına, ab-havasına hopmuşdur. Belə şəhərlərdən Avstriyanın Vyana, Italiyanın Neapol, Azərbaycanın da Qarabağının Şuşa şəhəridir. Hətta xalq arasıqda məşhur kəlam vardır ki, "Şuşada körpələr bələkdə belə muğam üstündə ağlarlar".

Musiqimizin məbədi və beşiyi olan füsünkar Şuşa şəhərinin əsası 1750-ci ildə Qarabağın ilk xanı Pənah xan tərəfindən qoyulmuşdur. Pənah xanın qala üçün seçdiyi yer əvvəllər tamamilə meşə ilə örtülü bir sahə idi və üç tərəfdən sıldırım qayalarla əhatə olunduğundan, gələcək şəhər üçün əlverşli təbii səngər rolunu oynayırdı. Pənah xan tərəfindən

qısa bir müddət ərzində salınan bu şəhər əvvəllər öz banisinin adı ilə "Pənahabad" adlanırdı. Lakin sonralar şəhərin yaxınlığında yerləşən Şuşakəndin adıyla "Şuşa qalası" adlanmağa başlandı.

Tarix boyu bu qala düşmən basqınlarına, hücumlarına məruz qalmışdırsa da, heç vaxt əyilməmiş, həmişə alınmaz olmuşdur.

**İştirakçı: Şuşa – Zaqafqaziyanın konservatoriyasıdır**, təbirini və təyinini haqlı olaraq qazanmışdır. Şuşa konservatoriyasının parlaq nümayəndələri dünyanın bütün qitələrində Azərbaycan musiqisini ləyaqətlə təmsil edərək ona şöhrət gətirmişlər.

Şuşa – Mir Möhsün Nəvvabın, Xarrat Qulunun, Hacı Hüsünün, Sadıxcanın, Məşədi Isinin, Əbdülbağı Zülalovun, Cabbar Qaryağdıoğlunun, Keçəçi oğlu Məmmədin, Məşədi Məmməd Fərzəliyevin, Islam Abdullayevin, Seyid Şuşinskinin, Bülbülün, Zülfi Adıgözəlovun, Xan Şuşinskinin, Məşədi Cəmil Əmirovun, Qurban Primovun, bəstəkarlardan Üzeyir Hacıbəyovun, Zülfüqar Hacıbəyovun, Fikrət Əmirovun, Niyazinin, Əfrasiyab Bədəlbəylinin, Soltan Hacıbəyovun, Əşrəf Abbasovun, Süleyman Ələsgərovun, müğənni Rəşid Behdudovun vətənidir. Bu, əlbəttə Şuşa musiqiçilərinin tam siyahısı deyil. Şərq musiqisinin məşhur tədqiqatçısı V. Vinoqradov hələ 1938-ci ildə Üzeyir bəy haqqında kitabında yazırdı: "Şuşada musiqi çoxdur Azərbaycanın hər hansı rayonundan daha çox xalq mahnılarını, rəqslərini, xanəndə və sazəndələrini burada eşitmək olar. Şuşa qədim zamanlardan musiqinin beşiyi kimi məşhurdur və bütün Zaqafqaziyada xalq musiqi istedadlarının tükənməz bulağı kimi şöhrət qazanmışdır."

Şuşanın xanəndəlik məktəbinin son korifeylərindən olan Xan Şuşinski (1901-1979) haqqında söz açdıqda qeyri-ixtiyari Səməd Vurğunun "Azərbaycan" şerinin bu misraları yada düşür:

Könlüm keçir Qarabağdan
Gah bu dağdan, gah o dağdan.
Axşam üstü qoy uzaqdan
Havalansın Xanın səsi
Qarabağın şikəstəsi.

Biz çox şadıq ki Ali baş komandan İlham Əliyevin uzaqgörən siyasəti, qəhrəman övladlarımızı şücaəti sayəsində Qarabağda, Şuşada, onun "Cıdır düzü"ndə, "Isa bulağı"nda yenə "Qarabağ şikəstəsi" səslənir, Qarabağ bülbülləri" cəh-cəh vurur!

**III iştirakçı:Şuşanın gəzməli-görməli yerləri**

Şuşa xarı bülbülü, məscidləri, gözəl və fərqli təbiəti ilə məşhurlaşmış şəhərlərdəndir. Havasının saflığı və müalicə əhəmiyyəti baxımından kurort şəhərlərdən hesab olunan Şuşaya təəssüf ki, yaxından gedib gəlmək 2020-ci ildən sonra mümkün olmuşdur. Azərbaycan xalqı I Qarabağ müharibəsindən bu yana bu gözəl torpağa ayaq basmağa həsrət qalmışdı. Yalnız Azərbaycanda deyil, onun hüdudlarından kənarda da Şuşa öz istirahət guşələrinə görə məşhurdur. Şuşadan 40 km aralıda-Laçın yolunun üstündə yerləşən Turşsu istirahət və müalicə zonası vardır və xeyli məşhur yerdir. Buranı məşhur edən əsas şey isə şəfalı və müalicəvi vannalarıdır. Şəhərin gəzməli görməli yerlərindən biri də Yuxarı Daşaltıdır. Yəqin ki, bu adı eşitməmiş

olmazsınız. Bu yerin özünəməxsus xüsusiyyəti isə istirahət guşəsi olan Daşaltı çayının üstündə, "Ağzıyastı kaha" yerləşən Üçmıx dağının düz altında, çeşmə ətrafında yerləşməsidir. Qədim tarixə malik Topxana meşəsi Şuşanın nadir sərvətlərindən biridir. Erməni vandalları tərəfindən bu meşələrin yox edilməsi haqqında məlumatlar vardır. Burada qədim tarixə malik ağacları kəsərək başqa ölkələrə satan ermənilər Şuşanın bu qədim tarixi meşəsini məhv etməyə çalşırdılar. Topxana meşəsi Şuşa ətrafındakı torpaqların 20 faizini əhatə edir. Meşədə palıd, qarağac, fıstıq, kimi ağaclar vardır. Topxana əsl təbiət möcüzəsi idi. Topxananın heyvanat aləmi də çox zəngindir. Belə ki, burada hər an qarşınıza ayı, canavar, tülkü, dovşan, cüyür və digər heyvanlardan, kəklik, turac, göyərçin kimi gözəl quşlardan çıxa bilərdi. Topxana meşəsində subalp və alp çəmənləri, dərin dərələrində bulaqlar olub.

**IV iştirakçı:Turistlərin ən sevimli yeri, əvəzsiz və əsrarəngiz təbiətə malik əfsanəvi hesab etdiyi yerlərdən biri də "Cıdır düzü"**-dür. Qərb tərəfində bir-birinin arxasında üç hündürlük yerləşdiyinə görə "Üçmıx" da adlandırılmışdır. "Cıdır düzü"ndə hər il may ayında "Xarı-bülbül" mahnı festivalları keçirilirdi.

**V iştirakçı: Şuşanın işğalı**

Şuşa şəhəri 1992-ci il may ayının 8-də erməni birləşmələri tərəfindən işğal edilmişdir. Şuşanın işğalı nəticəsində şəhərdə 195 nəfər Azərbaycan vətəndaşı xüsusi amansızlıqla qətlə yetirilmiş, 165 nəfər yaralanmış, onlardan 150 nəfəri əlil olmuş, 552 körpə valideynlərini itirmiş, 20 mindən artıq əhali

isə doğma yuvasını tərk edərək məcburi köçkün vəziyyətinə düşmüşdür. Əsir və girov götürülmüş 58 azərbaycanlının taleyi barədə bu günə qədər məlumat yoxdur.

**VI iştirakçı:Şuşanın azad edilməsi**

9 noyabr 2020-ci ildə isə II Qarabağ Müharibəsi zamanı Şuşa işğaldan azad edilmişdir. Lakin bu gözəl torpağı azad etmək heç də asan başa gəlmədi. Dünyaya səs salmış II Qarabağ müharibəsində Şuşanın azad edilməsi hər kəsi heyran etmişdir. Çünki Şuşa topla-tüfənglə, tankla deyil Azərbaycan oğullarının cəsarəti, mərdliyi sayəsində düşmən tapdağından qurtuldu. Əlbəyaxa döyüşlə igidlərimiz bu torpağı canları, qanları bahasına geri aldılar. Şuşanın geri qaytarılması xəbəri ölkədə böyük coşqu və sevinclə qeyd olunmuş, insanlar meydanlara axışaraq bu zəfəri böyük təntənə ilə qeyd etmişdi. Azad edildikdən sonra sürətli şəkildə bu ərazilərin yenidən dirçəldilməsinə çalışıldı. Hətta ilk Muğam festivalı da Şuşada baş tutaraq dünyaya səs saldı. Festivalda Azərbaycanın ən güclü səsə malik sənətkarları çıxış etdi. Şuşada bugün binaların tikilməsi, xəstəxanaların yaradılması, yolların çəkilməsi kimi insanların yaşaması üçün vacib olan bütün abadlıq, təmir-tikinti işləri görülür. Tək Azərbaycandan deyil digər ölkələrdən də işçi qüvvəsi axın-axın gələrək gözəl Şuşamızı əvvəlki vəziyyətinə qaytarmaq üçün canla-başla çalışırlar.

**İştirakçı:Şuşada, həmçinin turizmin inkişaf potensialı var**. Şuşada Pənahəli xanın sarayı, Yuxarı Gövhər ağa məscidi, Aşağı Gövhər ağa məscidi, Xurşidbanu Natəvanın evi, Molla Pənah Vaqifin məqbərəsi, Şuşa mağara düşərgəsi,

Şuşa qalası kimi tarixi abidələr və muzeylər ziyan görsə də, sürətlə bərpa işləri aparılır. Şuşa tarixi, sağlamlıq və mədəni turizm üçün böyük imkanlara malikdir. Turşsu yaylaqları, Səkili bulağı, İsa bulağı, Şəmilin bulağı, Cıdır düzü və s. turizm üçün geniş perspektivlər vəd edir. Turşsu şəfalı və müalicəvi suyu isə sağlamlıq turizminin inkişafına gətirib çıxaracaq.

**Şuşa həm də Qarabağ xalçaçılıq sənətinin mərkəzlərindən biri kimi inkişaf imkanlarına malikdir.**

*Konfransın sonunda məktəblilər Şuşa haqqında şeir söyləyirlər:*

Şuşa! Ruh bədənə qovuşan kimi,
Vüsalın can verir Azərbaycana.
Səninçün köklənib qəlbimin simi,
Ruhlar müjdə verir Seyyidə, Xana.
Vaqif türbəsindən əl edir bizə,

Ruhu salamlayır igid əsgəri.
Xan qızı Natavan çıxıbdır düzə,
Köksünə sıxıbdır ər oğlu əri.

Uğrunda igidlər can fəda edir,
Silir torpağından düşmən izini.

Dikəlir Vətənin qəddi, dikəlir,
Biz qanla yazırıq zəfər sözünü.

Ürəyim ağactək çiçək-çiçəkdi,
Bu payız çağında ey bahar Şuşam!
Baxma ki, yolların çəndi, çisəkdi,
Bu səhər bəxtinə gün doğdu, Şuşam!
Bu gün təbiət də döyüşür orda,

Kəsir bənd-bərəni, bağlayır yolu.
Təpələr dumanı atır üstündən,
İgidlərin yolu aydınlıq olur.

Ömrün də dağı var, yal-yamacı var,
Vaxtın atlarıyla həsrət düzündən
Keçdik, vüsalına yetdik, Qarabağ,
Öpdük hər çiçəyin, gülün üzündən.

Ali Baş Komandan xalqa üz tutub
Müqəddəs savaşdan xəbərlər verir.
Onun hər sözündə qətiyyət, qürur,
Sənin haqqın idi bu zəfər! – deyir.

Gözün aydın olsun, Azərbaycanım,
Gözündə çağlayan sevinc yaşıdır.
Bu savaş yenilməz Azərbaycanın
Vətən savaşıdır, haqq savaşıdır!

Müəllif: Kənan Hacı

Azərbaycanın bölgələrində oxucular arasında anket sorğusu təşkil etməklə onların yaşadıqları region haqqında nə qədər məlumatlı olmalarını, fikir və düşüncələrini müəyyənləşdirmək olar. Sorğunu şifahi və yazılı formada aparmaq olar.

1.Azərbaycanda rayon inzibati ərazi bölgüsü neçənci ildən tətbiq olunur? Bilirsinizmi?

☺Bəli ______________ ☺Xeyir

2.Hansı rayonun ərazisində yaşayırsınız?

☺__________

3.Yaşadığınız rayonun hansı gözəl istirahət zonaları var? Adlarını qeyd edin.

☺__________________________________________

4.Sizcə Azərbaycanın ən gözəl guşəsi hansı regiondur? ☺__________________________________________________

5. Yaşadığınız regionda kitabxana fəaliyyət göstərirmi?

☺ Bəli ☺ Xeyir

5. Yaşadığınız rayonun kitabxanasına müraciət edirsinizmi?

☺ Bəli ☺ Xeyir

6. Yaşadığınız rayonun kitabxanasında regionunuzu tanıdan sərgilər təşkil olunurmu?

☺ Bəli ☺ Xeyir ☺ ____________

7.Rayonunuzun hansı məşhur şəxsiyyətlərini tanıyırsınız? Adını qeyd edin.

☺ Bəli ☺ Xeyir ☺____________________

8. Yaşadığınız regionda hansı muzeylər fəaliyyət göstərir? ☺_______________________________________________

9.Sizin rayon hansı meyvəsi ilə məşhurdur? ☺_____________

10. Sizin yaşadığınız rayona həsr olunmuş hansı kitabları tanıyırsınız? Adlarını qeyd edin. ☺_______________________________________________

Azyaşlı uşaqlar arasında kiçik həcmli tədbirlər təşkil etmək olar. Bu zaman azyaşlılara sadə dildə yazılmış və az həcmli şeirlər təqdim olunmalıdır. Belə tədbirlər qısa olmalı uşaqları yormamalıdır. Yaxşı olardı ki, az yaşlı oxucular üçün tədbirlər oyun formasında təqdim edilsin. Belə tədbir formalarından birini sizə təqdim edirik. (Tədbir regionun ən gözəl guşəsində, açıq havada keçirilir. Aparıcı səhnəyə daxil olur. O nisbətən yuxarı sinif şagirdlərindən seçilir. Həmin uşaq səlist və aydın danışıq qabiliyyətinə malik olmalıdır. Aparıcının sözlərini sizə təqdim edirik.)

**Aparıcı:** Salam uşaqlar!

**Aparıcı:** Bilirsinizmi ki, 27 sentyabr Ümumdünya Turizm Günüdür. Prezidentimizin diqqəti nəticəsində ölkəmizin bütün bölgələrində hər tərəf abadlaşdırılır, gözəlləşdirilir. Uşaqlar, bəs siz ölkəmiz, onun rayonları haqqında məlumatlısınızmı? Mən istərdim ki, sizinlə kiçik bir **oyun** keçirək. Onun üçün aranızdan ən çox şeir bilən və öz biliyinə güvənən varsa buyursun. Uşaqlar arasından 8-10 nəfər seçilir. Onlar yerdə dairəvi formada düzülmüş, üzü aşağı çevrilmiş fincanların önündə bardaş quraraq otururlar. Lakin oyundan əvvəl bir alma, aparıcı tərəfindən fincanlardan birinin altında gizlədilir. Iştirakçılardan biri qalxır və uşaqların ətrafında

fırlanaraq almanın kimin fincanında olduğunu müəyyən etməyə çalışır. Bu ərəfədə uşaqlar xorla oxuyurlar:
Ay lulu almanı kim tapacaq? }
Uşaqlar növbə ilə həmin almanı tapmağa çalışırlar. Almanı tapa bilməyən hər uşaq Azərbaycanın dilbər guşələrinə həsr edilmiş bir şeir söyləyir, mahnı ifa edir, rəqs edir. Sonda alma tapıldıqda onu tapan iştirakçı almanı yeyir. Bu oyunu keçirməzdən əvvəl kitabxanaçı uşaqlarla məşqlər aparmalı, onlara şeir və nəğmələr öyrətməlidir. Məktəbli oxucuların Azərbaycanın regionları haqqında olan biliklərini daha da artırmaq və mövcud biliklərini yoxlamaq məqsədilə onlar arasında **intellektual oyunlar** təşkil etmək olar. Uşaqlar komandalara ayrılır və komandalar müxtəlif adlarla adlandırılır:
**(“Vətənpərvərlər”, “Cəsurlar”, “Yurdsevərlər”)**.
Belə oyunlar bir neçə mərhələdən ibarət olur. Hər mərhələ müəyyən bir sahəyə həsr olunur.
**Birinci tur “Tarix”** adlandırılır. Bu turda rayonların tarixi və tarixi şəxsiyyətləri haqqında suallar komandalara təqdim olunur.
1. Cavad xan hansı xanlığın xanı olmuşdur?
* Gəncə
2. Şəki xan sarayı neçənci ildə inşa olunmuşdur?
* 1789-1790
3. Qarabağ xanı kim olmuşdur?
* Pənahəli xan
4. Bu şəhər 1235-ci ildə Monqolların Azərbaycana II yürüşü zamanı ələ keçirilmişdir. “Azərbaycanın incisi” (Göy göl) məhz bu rayonun ərazisində yerləşir.
* Gəncə

5. Azərbaycanda ən çox əhalisi olan bu kənd Naxçıvan Muxtar Respublikasında yerləşir. Onun əhalisi 13,9 min nəfərdir. Bu hansı kənddir?
* Nehrəm
6. Azərbaycanın ən balaca kəndləri Acıdərə və Prəqan kəndləri hansı rayonların ərazisində yerləşir? (hər birində cəmi 2 nəfər yaşayır).
* Şamaxı (Acıdərə) İsmayıllı (Prəqan)
**İkinci tur "Tanınmış şəxsiyyətlər"** adlandırılır. Bu turda regionun məşhurları haqqında suallar yarış iştirakçılarına təqdim olunur.
1. "Naxçıvan qədim diyardır. Arxeoloji tapıntıların təhlilinə görə demək olar ki, Azərbaycanın ən qədim diyarlarından biri Naxçıvandır." sözləri məhz bu şəxsiyyətə məxsusdur.
* Heydər Əliyev
2. General Səmədbəy Mehmandarov və Həzi Aslanov Azərbaycanın hansı rayonunda dünyaya gəlmişdir?
*Lənkəran
3. Şeyxülislam və Qafqaz Müsəlmanları Ruhani İdarəsinin başçısı Allahşükür Paşazadə, Azərbaycanın hansı regionunda dünyaya gəlmişdir?
*Lənkəran
4. Xaqani Şirvani, İmadəddin Nəsimi, Seyid Əzim Şirvani, Mirzə Ələkbər Sabir kimi Azərbaycanın tanınmış sənətkarları məhz bu rayonda anadan olmuşlar.
* Şamaxı
5. Bu sənətkarın "Gülüstan-i İrəm" əsərində Azərbaycanın Şirvan ərazisinin tarixindən bəhs olunur? Həmin tanınmış şəxsiyyət kimdir?
* Abbasqulu ağa Bakıxanov

**III tur “Coğrafiya” adlanır.** Bu turda uşaqlara regionların relyefi, kəndləri, təbiət aləmi ilə bağlı suallar verilir.

1. Ərazisinin çox hissəsini Kiçik Qafqazın Zəngəzur və Dərələyəz silsilələri təşkil edir. Öz çəyirdəkli meyvələri ilə məşhur olan bu region hansı iqtisadi regiondur?

*Naxçıvan

2. Hirkan qoruğu bu iqtisadi rayonun ərazisində yerləşir. Münbit sarı torpaqlarında sitrus meyvələri becərilir. Bu hansı regiondur?

* Lənkəran

3. 1973-cü ildə tikilmiş rəsədxana bu rayonun ərazisində yerləşir. İmaddədin Nəsimi məhz burada dünyaya göz açmışdır. Ağsu, İsmayıllı, Qobustan, Xızı, Quba rayonları ilə qonşu olan bu rayon necə adlanır?

* Şamaxı

4. Azərbaycanın ən hündürdə yerləşən kəndi olan Xınalıq məhz bu rayonun ərazisində yerləşir. Tumlu meyvəçilik üzrə ixtisaslaşan bu rayon necə adlanır?

* Quba

5. Böyükşor gölü bu iqtisadi rayonun ərazisində yerləşir. Burada suptropik meyvəçilik geniş yayılmışdır. Həmin regionun adını daşıyan şirniyyat belə vardır. Bu hansı regiondur?

* Abşeron

**IV tur “Kitablar” adlanır.** Bu turda uşaqların mütaliə səviyyəsi müəyyən olunur.

1. Koroğlu məhz bu regionun kəndini özünə məskən seçmişdir. Bu hansı rayonun hansı kəndidir?

*Naxçıvan, Çənlibel

2. Dünya şöhrətli şair Nizami Gəncəvi “İsgəndərnamə” əsərində Nüşabə adlı hökmdarın Azərbaycanın məhz bu ərazisindəki ədalətli hakimiyyətindən bəhs edir. Əsərdə bəhs olunan ərazinin adını tapın.

* Bərdə

3. Abbasqulu ağa Bakıxanov məhz bu əsərini Dağıstan və Şamaxı tarixinə həsr etmişdir. Həmin əsər necə adlanır?

* “Gülüstan-i İrəm”

4. Məşhur xarici ədəbiyyat nümayəndəsi Jül Vern “Arxipelaq alovlanır” əsərində Azərbaycanın məhz bu şəhərini təsvir etmişdir. Həmin şəhərin adını deyin.

* Bakı

**Azyaşlı uşaqlar üçün kitabxanalarda ucadan oxular təşkil etmək məqsədə uyğun olar.** Ucadan oxu üçün Xəlil Rza Ulutürkün “Azərbaycan” şeirini oxuculara təqdim etmək olar.

Gəzdim sənin çöllərini
Oba-oba, oymaq-oymaq.
Nə gözəlmiş qoynun sənin
Ana torpaq, ana torpaq!
Astarada, Lənkəranda
Limonların rəngi sarı.
Süfrələrin bəzəyidir
Kürdəmirin qızıl narı.
Seyr edirəm Abşeronun
Səhərini, axşamını.
Çox sevirəm burda bitən
Balənciri, ağ şanını
Qızıl Quba, qızıl Qusar
Xatırladır ilk baharı.

Bağlarının şöhrətidir
Gül yanaqlı almaları.
Zaqatala qoruğunda
Cüyür-ceyran sürü-sürü.
Baxdıqca bu gözəlliyə,
Uzanmazmı insan ömrü?
Mingəçevir dənizindən
Neçə-neçə kanal gəlir.
Bağ-bağatlı Şirvanla bir
Ağ pambıqlı Muğam gülür.
Gör nə qədər filiz yatır
Daşkəsənin dağlarında.
Xan çinarlar göyə qalxır
Qədim Gəncə bağlarında
Çıxdım Şuşa yaylağına
Çeşmələrdə gözüm qaldı
Endim İsa bulağına,
Cığırlarda izim qaldı.
Kəlbəcərin dağlarında
Durub baxdım al səhərə.
Yerdə əlvan çiçəklərə
Göydə qızıl şəfəqlərə.

Bu tədbirlərlə yanaşı kiçik oxucuları məlumatlandırmaq məqsədilə kitabxanaçılar **məktəblilərlə söhbət** keçirə bilərlər. Bu zaman kitabxanaçılar özləri ilə Azərbaycanın regionları haqqında olan kitab və jurnalları məktəblərə apararaq onlar haqqında uşaqlara ətraflı məlumat verərlər. ***Bu zaman kitabxanaçı azyaşlılara "Göy-göl", "Gəncə", "Naxçıvan", "Şəki xan sarayı", "Naftalan", "Şuşa", "Azıx***

***mağarası", "Cavanşir qalası", "Surxay qalası", "Qarı dağı", "Yeddi gəlin dağı" "Əlincə qalası" kimi bir-birindən maraqlı kitablar təqdim edir və kitabxana haqqında ətraflı məlumat verir.*** Adını çəkdiyimiz kitabların hər biri "Beşik nəşriyyatı"nda nəşr edilmişdir və Azərbaycanın gözəl guşələri, tanınmış şəxsiyyətləri, abidələrini balacalara tanıtmaq cəhətdən mühüm əhəmiyyət kəsb edir. Kitabxanaçı məlumat verdikcə yaxşı olardı ki, kitabları oxuculara əyani şəkildə nünayiş etdirərdi. Kitabı səhifə-səhifə əks etdirən slaydların müşaiyəti ilə söhbətin aparılması uşaqlar üçün daha maraqlı olar. **Uşaqların diqqətini cəlb etmək məqsədilə slaydlara maraqlı effektlər tətbiq edilir.** Bundan əlavə uşaqları daha da həvəsləndirmək məqsədilə onların haqqında oxuduqları rayona ekskursiya təşkil etmək olar. Azyaşlı uşaqları məlumatlandırmağın üsullarından biri də şəkillərdən istifadə etməkdir. Bildiyimiz kimi balacalar gördüklərini daha yaxşı qavrayırlar. Bu məqsədlə şəhərlər, onların tarixi abidələri, təbii sərvətləri, bitki və heyvanat aləmi şəkillərin və slaydların köməyi ilə az yaşlı oxuculara nümayiş oluna bilər.

**Kitabxanalarda bu mövzuda vaxtaşırı viktorinalar keçirmək olar.**

**Kəlmə oyunu** adlandırdığımız bu oyunu keçirməkdə məqsəd oxucuların Azərbaycanın bölgələri haqqında olan bilikləri yoxlamaqdır. Bunun üçün sözlər vərəqlərdə qeyd olunur və vərəqlər qutuda yerləşdirilir. Iştirakçılar bükülü kağızları açır və sözü oxuyur. Onun hansı rayona aid olduğunu söyləyir. Hər komandanın bir üzvü əlini qabın içinə salaraq bükülü kağızlardan birini seçir.

Suallar və cavablar

1. Sual -Alma Cavab –Quba
2. Sual- Nar Cavab- Göyçay
3. Sual - balıq Cavab- Neftçala, Salyan
4. Sual - qızıl Cavab – Kəlbəcər
5. Sual – qoz, fındıq, şabalıd Cavab - Zaqatala
6. Sual - limon Cavab- Lənkəran
7. Sual – zəfəran Cavab – Abşeron. Mərdəkan
Sual – çay Cavab – Lənkəran
8. Sual – Qızılgül Cavab - Zaqatala

Kitabxanada keçirilən maraqlı tədbirlərdən biri ədəbi bədii gecədir. Ümumdünya Turizm gününə həsr olunmuş ədəbi bədii gecənin ssenarisini sizə təqdim edirik.

(Səhnədə Azərbaycanın dilbər guşələrinin şəkilləri və qədim abidələrin maketləri yer almışdır. Akif İslamzadənin ifasında "Bura vətəndir" mahnısı səslənir və ekranda yurdumuzun gözəl guşələrini əks etdirən slayd nümayiş olunur. )

**I Aparıcı:** Salam əziz qonaqlar, balaca dostlar. Hamınızı xoş gördük.

**II Aparıcı:** Hamımız bilirik ki, 27 sentyabr Ümumdünya Turizm Günüdür. Bizim qarşımızda duran əsas vəzifə ölkəmizi dünyada daha yaxşı tanıtmaq, turizm sahəsində dünya ölkələri arasında yüksək səviyyəyə qaldırmaqdır.

**I Aparıcı:** Uşaqlar, bəs siz ölkəmiz, onun ərazisi, rayonları, coğrafiyası, haqqında ətraflı məlumata maliksinizmi?

**II Aparıcı:** Dostlar, bilirsinizmi bu yaxınlarda, Cırtdan rayonlardan səfərdən qayıdıb. Gəlin onu səhnəyə dəvət edək təəssüratlarını və öyrəndiklərini bizimlə bölüşsün. ( Aparıcı uşaqlarla birlikdə Cırtdanı səsləyir.)

**Cırtdan:** Salam uşaqlar, mən uzaq səfərdən gəlirəm. Doğma yurdumun hər tərəfini qarış-qarış gəzib sizə xoş təəssüratlar gətirmişəm.

**II Aparıcı:** Xoş gəlmisən Cırtdan, hələ bir de görək haraları gəzmisən, nə öyrənmisən? Bəs hədiyyələrin hanı? Axı söz vermişdin ki, bizə sovqat gətirəcəksən.

**Cırtdan:** Hə, sovqatı unutmamışam. Sizə bir-birindən maraqlı kitablar gətirmişəm.

**I Aparıcı:** Bəs hardadır o kitablar?

**Cırtdan:** Gəlin, birlikdə səsləyək onları. (Uşaqlar, Cırtdan kitabları cağırır. "Şuşa", "Şəki xan sarayı", "Naftalan", "Gəncə", "Göygöl", Naxçıvan kitabları səhnəyə daxil olurlar.)



Məktəbli oxucular şair Etibar Vəliyev Şuşa haqqında qələmə aldığı "Mən əsgər andını içib gəlmişəm" şeirini söylədikdən sonar iştirakçı bu mövzuda çıxışını davam etdirir.

## MƏN ƏSGƏR ANDINI İÇİB GƏLMİŞƏM

Çəkil yağı düşmən, Qarabağımdan.
Şuşa qalasından, uca dağımdan.
Çəkil qabağımdan, keç qabağımdan,
Mən əsgər andını içib gəlmişəm.
Sülh deyib, sizlərə zaman vermişik.
Sən demə zalıma aman vermişik.
Apreldə cavabın yaman vermişik,
Mən əsgər andını içib gəlmişəm.
Xocalı, Xocavənd, Xankəndi mənim,
Zəngilan, Cəbrayıl başımda çənim,
Ağdərə, Qubadlı yuxuma qənim,
Mən əsgər andını içib gəlmişəm.
Ağdam, Fizulidən keçib gələrəm,
Kəlbəcər, Laçına səcdə edərəm,
Mən cavan Heydərəm, baba Heydərəm,
Mən əsgər andını içib gəlmişəm.
Qələbə müjdəsi, sorağı məndə,
Canım Azərbaycan, bayrağı məndə,
Çəkiçi məndədi, orağı məndə,
Mən əsgər andını içib gəlmişəm.

Xəstədi, düşmənin vardı mərəzi,

Anamla etmişəm razi-niyazi,

“Ya şəhid olaram, ya da ki qazi,”

Mən əsgər andını içib gəlmişəm.

**İştirakçı:** Şuşanın dağlarından nurlanan günəşin "günaydın səda"sına göz açmaq da varmış qismətdə. Dostlar mənə Azərbaycan ədəbiyyatının, mədəniyyətinin, tarixinin ən önəmli hadisələrindən biri - Vaqif Poeziya Günləri və dahi Azərbaycan şairi, dövlət xadimi Vaqifin məqbərəsinin bərpadan sonrakı açılışı qismət oldu. Bizimlə birgə Şuşaya bu şəhərin əvvəlki sakinlərindən də gələnlər var. Kitabxana əməkdaşları, Üzeyir Hacıbəyovun ev muzeyinin işçiləri də burda idilər. Hazırda Vaqif məqbərəsinə gedərkən onların sayəsində Şuşanı daha yaxından tanımağa başlayıram. Hər küçədən keçdikcə bir-bir binaları, evləri, abidələri tanıdırlar bizə. Amma görürəm ki, hamısının gözü başqa bir şey axtarır. Qəfil xanımlardan biri dillənir: "Baxın, bura bizim evimizdir". Sonra bir başqası öz evlərini göstərir. Hamısı həsrətlə ən gözəl günlərini keçirdikləri o həyətlərə, evlərə baxırlar. Çox tez zamanda yenidən orda yaşamaq ümidiylə. O ümiddir ki, dilləndirir şuşalıları. Bizi sevinclə öz evlərinə qonaq da dəvət edirlər. Vaqif Poeziya Günləri Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin təsirli nitqiylə başladı. Cənab Prezident isə Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü uğrunda canını qurban vermiş qəhrəman şəhidlərimizin əziz xatirəsini bir dəqiqəlik sükutla yad etdikdən sonra çıxışına keçdi:

"Bildiyiniz kimi, Molla Pənah Vaqifin məqbərəsinin Şuşada ucaldılması qərarını Ulu öndər Heydər Əliyev vermişdir. Onun təşəbbüsü ilə 1982-ci il yanvarın 14-də burada qarlı, şaxtalı havada bu məqbərənin açılışı olmuşdur. Bu, sıradan olan hadisə deyildi. Çünki o vaxt Şuşa Dağlıq Qarabağ Muxtar Vilayətinin bir hissəsi idi. Bildiyiniz kimi, uzun illər ermənilər Şuşaya iddia edirdilər, Şuşanı erməni şəhəri kimi qələmə verməyə çalışırdılar. Halbuki bunun üçün heç bir tarixi, mədəni əsas yox idi. Onu da nəzərə almalıyıq ki, Molla Pənah Vaqif təkcə şair yox, eyni zamanda, Qarabağ xanının vəziri idi. Sovet dövründə sovet ideologiyası, Sovet hökumətinin tarixlə bağlı yanaşması belə idi ki, xanlıqlar tarixin qara ləkəsi kimi qələmə verilirdi. Bütün bunlara baxmayaraq, Ulu öndərin iradəsi və qətiyyəti nəticəsində bu məqbərə ucaldılmışdır və bir daha Şuşanın Azərbaycan şəhəri kimi təsdiqi öz yerini tapmışdır. Hər addımda qarşımıza bulaqlar çıxır. Cənab Prezident də çıxışında Şuşada 17 bulaq olduğunu və düşmənin bunların hamısını qurudub dağıtdığını demişdi. Dövlətimiz isə o bulaqları bərpa edib. Hər bulağın suyundan mütləq dadırıq. Gör neçə illərdir həsrətik bu dada. Küçələri dolana-dolana Yuxarı Gövhər ağa məscidini axtarırdıq. Qəfil hamımız dayandıq, hamı susdu. Bura gələndən bəri, demək olar ki, hər daşın, hər divarın üstündə qəhrəman döyüşçülərimizin adlarını oxuyurduq. Amma bu, tamam başqa mənzərəydi. Bu divarda yazılanlar şəhidlərimizin adları idi və ən üstdə "Qisasınız alındı" yazılmışdı. Bu mənzərə qarşısında nəfəsimi çəkmədən durmuşdum, adları bir-bir oxudum və gördüm ki, mən bu şəhid qəhrəmanlarımızın hər birini tanıyıram. Və bu gün sanki hər biri gözümün önündə canlandı, mən qəhrəman

doğmalarımı Şuşada tikililərin divarında diri tapdım. Bütün şəhidlərimizə Allahdan rəhmət diləyib yolumuza davam edirik. Azərbaycanın mədəniyyət paytaxtı elan edilən Şuşada bu gün şəhərin əsl tarixi simasının bərpası yönündə nəhəng layihələr gerçəkləşdirilir. Qısa müddətdə Şuşanın Baş planının hazırlanması, qüdrətli şair Molla Pənah Vaqifin büstünün və muzey-məqbərə kompleksinin öz ilkin görkəminə qaytarılması, Bülbülün ev-muzeyinin və Üzeyir Hacıbəylinin heykəlinin açılışları, habelə buradakı tarixi, dini və memarlıq abidələrinin bərpası prosesi ölkəmizin mədəniyyət paytaxtındakı kompleks işlərin tərkib hissəsidir. Cıdır düzündə "Xarıbülbül" musiqi festivalının və Vaqifin möhtəşəm məqbərəsi önündə Vaqif Poeziya Günlərinin təşkili ənənəsinin bərpası da göstərir ki, Şuşa sürətlə dirçələrək əvvəlki dolğun mədəni həyatına qovuşmaq yolundadır.Və bu gün biz tarixin "Şuşa ilində" yaşayırıq. Nə xoşbəxtik ki, Şuşanın 270 illiyini özümüz qeyd edirik. Təkcə müqəddəs şəhərimizi deyil, onun tarixini də yadelli işğalçıların əlindən qurtarmışıq.

**Şəki Xan sarayı:** Uşaqlar, siz heç Şəkidə Xan Sarayında olmusunuz? Bəs bilirsinizmi ki, dadından doymadığınız o dadlı halva və piti ancaq Şəkiyə məxsusdur?!

(Onun sözünü Naftalan kəsir)

**Naftalan:** Özünü çox tərif etmə. Halva-halva deməklə ağız şirin olmaz ki. O məşhur Şəki halvasından gətirərdin biz də dadına baxardıq.

**Şəki Xan sarayı:** (Gülərək) Kim deyir ki gətirməmişəm.(O əlində bayaqdan bəri saxladığı qutunu açaraq içindəki halvanı qonaqlara paylayır.)

**Göy-göl:** Mən də Gəncədən gəlmişəm ki, balaca dostlarımı Gəncəyə istirahətə dəvət edim. Uşaqlar, bəs siz mənim yaranma tariximi bilirsinizmi? Bilirsinizmi ki, mən Azərbaycanın ən gözəl mirvarisiyəm? Aranızda məni yaxşı tanıyan varsa, mənə həsr olunmuş gözəl bir şeir söyləsin.

**II Aparıcı:** Əlbəttə ki, bizim dostlar Göy gölü yaxşı tanıyır, onun haqqında bir-birindən maraqlı şeirlər bilirlər. Gəlin oxucularımızdan birinin ifasında şeir dinləyək.

*(Oxucu Əhməd Cavadın Göygöl şeirini söyləyir. )*

Bu gecə röyamda Göy gölü gördüm,
Orda ətir saçan min gülü gördüm,
Yaşıl budaqlarda nəğmə oxuyan
Bir şirin avazlı bülbülü gördüm.
Kəpəz şimşək olub çaxdı üstümə,
Sanki nəğmə olub axdı üstümə,
Daşqın sellərini yaxdı üstümə,
Köpüklənib, daşan gur seli gördüm.
Gördüm sularında mən öz əksimi,
Duydum kəkliklərin xoş nəğməsini,
Bir an dilə gəldi könlümün simi,
Ömrümdə xoş ayı, xoş ili gördüm.

**Cırtdan:** Gəlin, sizinlə kiçik bir oyun keçirək.

2022 - ci ili Ali baş komandan İlham Əliyev nə ili elan etmişdir.

2022-ci il Azərbaycan Respublikasında "Şuşa İli" elan olunmuşdur.

Deyin görək sənətkarlıq paytaxtı hansı rayon elan olunmuşdur?

(İsmayıllı)

**I Aparıcı:** Afərin uşaqlar. Bəs hansı rayon əfsanələr paytaxtı elan olunub?
(Şabran)
**II Aparıcı:** Sonuncu sualı sizə təqdim edirəm: Folklor paytaxtı hansı şəhər elan olunmuşdur?
(Lənkəran)
(Sualları cavablandıran iştirakçılar kitabla mükafatlandırılır. Daha sonra aparıcı qonaqları "Azərbaycan diyarı" adlı mahnıya qulaq asmağa dəvət edir.)
**I Aparıcı:** Əziz qonaqlar, tədbirimiz davam edir. (Elə bu vaxt Qarabağ şikəstəsi səslənir.)
**Göy göl:** Eşidirsinizmi?
**Şəki Xan Sarayı:** Necə də yanıqlı oxuyur. Mən bu səsi tanıyıram. Bu Şuşanın səsidir. (Bu zaman səhnəyə "Şuşa" adlı kitab daxil olur. Hamı onu böyük bir sevinclə qarşılayır)
**Şuşa:** Dostlar, hamımız bilirik ki, Azərbaycanımızın dilbər guşəsi olan Qarabağ düşmən tapdağından Ali baş komandan İlham Əliyevin uzaqgörən siyasəti, igid oğullarımızın qəhramanlığı sayəsində azad olundu. Gəlin birlikdə vətənimizin gündən-günə gözəlləşməsi üçün çalışaq.
*(Hamı qışqırır: Yaşasın Azərbaycan!)*
**II Aparıcı:** Biz çox sevinirik ki, dövlət başçımız İlham Əliyevin səyləri nəticəsiz qalmadı, işğal olunmuş torpaqlarımız düşmən tapdağından azad olundu. Biz sizinlə Qarabağda hələ çox görüşəcəyik. Gəlin, birlikdə Azərbaycan himnini ifa edək.
*(Sonda tədbirin bütün iştirakçıları ayağa qalxaraq Dövlət Himnini xorla ifa edir.)*

F.Köçərli adına Respublika Uşaq Kitabxanasının Məlumat və biblioqrafiya şöbəsinin Ümumdünya Turizm Günü ilə bağlı hazırladığı ədəbiyyat siyahısı:

**Kitablarda**

**Qurbanov F**. Azərbaycanda **turizm**in inkişaf problemləri : moonoqrafiya. - Bakı : Adiloğlu, 2007. - 344 s.

**Nadirov F. T**. Kənd yaşıl **turizm**i. - Bakı : Adiloğlu, 2004. - 112 s.

**Rəhimov S. H**. Turizm-ekskursiya işinin təşkili : Dərs vəsaiti. - Bakı : "Mütərcim", 2004. - 310 s.

Turizm bələdçiləri tərəfindən Bakı və Abşeron yarımadası haqqında məlumatın verilməsi üzrə vahid metodika. - Bakı : Təknur, 2012. - 328 s.

**Dövrü mətbuatda turizm haqqında**

2011-ci il Azərbaycanda "**Turizm** ili" elan olundu // Mədəniyyət. - 2011. - 19 yanvar. - № 4. - S. 3-4.

**Abdullayev F.** Azərbaycanın nadir geoloji obyektləri turizmin inkişafına önəmli təsir göstərir // Xalq qəzeti. - 2014. - 14 oktyabr. - № 222. - S. 6.

**Abdullayev F.** Nadir geoloji obyektlər və ekoturizm // Mədəniyyət. - 2010. - 1 sentyabr. - N 60. - S. 8.

**Abdullayev M.** Turizmə dövlət dəstəyi öz bəhrəsini verir // Xalq qəzeti. - 2019. - 20 avqust. - № 180. - S. 6-7.

**Abdullayeva F.** 27 sentyabr Dünya Turizm Günüdür // Mədəniyyət. - 2013. - 27 sentyabr. - № 69. - S. 8.

**Abdullayeva F.** Azərbaycan bölgələrinin zəngin turizm potensialı var : Daxili turizm sərgisində 15 rayonun turizm imkanları nümayiş olunacaq // Mədəniyyət. - 2011. - 27 aprel. - № 5 (x). - S. 12.

**Abdullayeva F.** Azərbaycanda arxeoloji turizmin böyük perspektivləri var // Mədəniyyət. - 2011. - 2 mart. - № 16. - S. 7.

**Abdullayeva F.** Azərbaycanda turizmin inkişafı üçün hərtərəfli şərait var : 2011-ci il "Turizm ili"dir // Mədəniyyət. - 2011. - 23 sentyabr. - № 70. - S. 6.

**Abdullayeva F.** Azərbaycanda turizmin inkişafı yeni mərhələyə qədəm qoyur // Mədəniyyət. - 2010. - 28 aprel. - N 26. - S. 4.

**Abdullayeva F.** Azərbaycanda turizmin inkişafının ən yeni mərhələsi // Mədəniyyət.az. - 2016. - № 9. - S. 100-103.

**Abdullayeva F.** Azərbaycanın dünya turizm xəritəsində öz yeri var // Mədəniyyət. - 2014. - 1 oktyabr. - № 75. - S. 8-9.

**Abdullayeva F.** Dövlət Proqramı turizm sektorunun inkişafına təkan verəcək // Mədəniyyət. - 2010. - 9 aprel. - N 21. - S. 4.

**Abdullayeva F.** Ekoloji turizm : sağlam istirahət və təbiəti mühafizə // Mədəniyyət. - 2010. - 7 aprel. - N 20. - S. 8.

**Abdullayeva F.** İlboyu dəbdə olan turizm istiqaməti - arxeoturizm // Mədəniyyət.az. - 2016. - № 2. - S. 94-96.

**Abdullayeva F.** Nargin turizm mərkəzinə çevriləcək : Adada nəhəng istirahət mərkəzinin tikilməsi planlaşdırılır // Mədəniyyət. - 2009. - 11 mart. - S. 8.

**Abdullayeva F.** Qarabağ tezliklə Azərbaycanın turizm mərkəzinə çevriləcək // Mədəniyyət : jurnal. - 2021. - № Mart /Aprel (336). - S. 102-105.

**Abdullayeva F.** Turizm günü 1970-ci ildən qeyd edilir : Sentyabrın 27-si Ümumdünya Turizm Günü // Mədəniyyət. - 2008. - 13 sentyabr. - S. 3.

**Abdullayeva F.** Turizm nəşrlərinə tələbat artır // Mədəniyyət. - 2011. - 28 sentyabr. - № 6(2). - S. 9.

**Abdullayeva F.** Turizm operatorlarının forumu keçirildi // Mədəniyyət. - 2008. - 17 aprel. - S. 9.

**Abdullayeva F.** Turizm xidməti sahəsində müsbət irəliləyişlər var // Mədəniyyət. - 2012. - 3 avqust. - № 56. - S. 7.

**Abdullayeva M.** Azərbaycanda turizm : Problemlər və inkişaf perspektivləri // Mədəniyyət. - 2011. - 27 aprel. - № 5. - S. 4.

**Abdullayeva N.** Azərbaycan dünyada turistlərin ən çox üstünlük verdiyi 20 turizm məkanından birinə çevriləcək // Palitra. - 2017. - 20-22 may. - № 4. - S. 4.

**Abdullayeva N.** Ölkələrin turizm siyasəti necədir? // Palitra. - 2016. - 1 iyul. - № 116. - S. 6.

**Abdullayeva N.** Regionların inkişafı turizm üçün böyük imkanlar yaradıb // Palitra. - 2017. - 25 avqust. - № 153. - S. 5.

**Abdullayeva N.** Turizmin inkişafı həm valyuta axınını artıracaq, həm də turizm ölkəsi kimi tanınmağa imkan yaradacaq // Palitra. - 2020. - 5 fevral. - № 12. - S. 4.

**Alışlı C.** Azərbaycanın turizm potensialı və ondan istifadə imkanları // İki sahil. - 2019. - 14 noyabr. - № 210. - S. 14.

**Allaqiyeva E.** Azərbaycanda mədəni-turizm imkanları // Mədəni Maarif. - 2011. - № 5. - S. 30-32.

**Aygün.** İşğaldan azad olunan torpaqların turizm potensialı // Kaspi. - 2020. - 14 noyabr. - № 152. - S. 16.

**Azərbaycan beynəlxalq** turizm təşkilatına üzv qəbul edilib // 525-ci qəzet. - 2019. - 18 dekabr. - № 165. - S. 12.

Azərbaycan Milli Kitabxanasında Mədəniyyət və **Turizm** Nazirliyinin 5 illiyinə həsr olunmuş sərgi açılmışdır // Respublika. - 2011. - 29 yanvar. - № 21. - S. 8.

**Azərbaycan nüfuzlu** turizm ölkəsi kimi tanınır // Mədəniyyət. - 2013. - 4 avqust. - № 62. - S. 9.

**Azərbaycan Respublikasında "**Turizm işçiləri günü" peşə bayramının təsis edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (1 sentyabr 2016-cı il) // Mədəniyyət. - 2016. - 2 sentyabr. - № 67. - S. 2.

**Azərbaycanda Dünya** Turizm Günü qeyd edilir // Respublika. - 2014. - 27 sentyabr. - № 211. - S. 3.

**Azərbaycanda** turizm **sahəsinin** geniş inkişaf perspektivləri var // Mədəniyyət. - 2010. - 24 dekabr. - N 91 (dekabr). - S. 8.

**Azərbaycanın daxili** turizm potensialı // Mədəniyyət. - 2010. - 28 aprel. - N 26. - S. 8-9.

**Azərbaycanın güclü** turizm potensialı var : **Turizm**in inkişafı Azərbaycanın iqtisadi potensialının möhkəmlənməsi, ölkəmizin beynəlxalq imici və dünyaya inteqrasiyası üçün çox mühüm vasitədir // Mədəniyyət. - 2010. - 28 aprel. - N 26. - S. 3.

**Azəri L.** Kitabxanalar mədəni xidməti vahid siyasətə çevirməlidir : Sentyabrın 28-də Milli Kitabxanada V Bakı Beynəlxalq Kitab Sərgi-Yarmarkası çərçivəsində Mədəniyyət və Turizm Nazirliyinin təşkilatçılığı ilə ölkə kitabxanaçılarının respublika müşavirəsi keçirilib // Mədəniyyət. - 2017. - 29 sentyabr. - № 76. - S. 3.

**Azəri N.** Ölkəmizdə həyata keçirilən turizm layihələri öz müsbət nəticələrini verir // Yeni Azərbaycan. - 2017. - 19 sentyabr. - № 167. - S. 6.

**Babanlı Y.** Azərbaycanın turizm potensialı "Nyu-York Tayms" səyahət sərgisində nümayiş olunmuşdur // Azərbaycan. - 2014. - 4 mart. - № 47. - S. 7.

**Babaşova Ş.** Azərbaycan turizm mərkəzi kimi // Mədəni Həyat . - 2014. - № 6. - S. 2-3.

**Babaşova Ş.** Uşaq və yeniyetmələrlə ekskursiya və turizm işinin təşkili
// Mədəni Həyat. - 2013. - № 12. - S. 30-34.

**Babayeva Ə.** Turizmdə bronlaşdırma sistemlərinin üstünlükləri // Mədəni Maarif. - 2010. - N 5. - S. 60-62.

**Bağırov Ç.** Azərbaycanın mədəni irsi və turizm mədəniyyəti // Mədənii-Maarif. - 2006. - № 2. - S.22-25.

Bakı ilə yanaşı, bölgələrimizdə də müasir **turizm** infrastrukturu yaradılıb : Prezident İlham Əliyev "AITF-2017" XVI Azərbaycan Beynəlxalq **turizm** və səyahətlər sərgisi ilə tanış olub // Azərbaycan : qəzet. - 2017. - 7 aprel. - № 71. - S. 1-2.

**Bayramlı Ü.** Azərbaycanın turizm ölkəsinə çevrilməsi üçün hər cür şərait var // Xalq qəzeti. - 2007. - 7 dekabr. - S. 4.

**Bayramov Ə.** Turizm sektorunun sürətlə inkişaf etdirilməsi istiqamətində ölkəmizdə mühüm layihələr həyata keçirilir // Xalq qəzeti. - 2018. - 20 fevral. - № 39. - S. 5.

**Bayramov V.** Azərbaycan bu gün dünyada həm də turizm ölkəsi kimi tanınır // Xalq qəzeti. - 2014. - 23 avqust. - № 181. - S. 1.

**Bayramov Z.** Turizmin inkişafına diqqət artır // Respublika. - 2019. - 26 yanvar. - № 20. - S. 5.

**Bayramova Z.** Müasir turizm infrastrukturu Azərbaycana turist axınını gücləndirir / // Səs. - 2019. - 16 avqust. - № 147. - S. 13.

**Bayramova Z**. Turizmin inkişafı məqsədilə yeni layihələr həyata keçirilir // Səs. - 2019. - 5 oktyabr. - № 183. - S. 7.

**Bəşirqızı Z.** Dünya turizminin yeni ünvanı - Azərbaycan // Xalq qəzeti. - 2016. - 13 avqust. - № 175. - S. 5.

**Bəşirqızı Z.** Hədəfimiz regionda turizm təhsili, tədqiqatı və təlimi sahəsində lider və peşəkar olmaqdır // Xalq qəzeti. - 2012. - 13 noyabr. - № 252. - S. 5.

**Bilalov B**. Heydər Əliyev və Azərbaycan turizmi // Mədəniyyət. - 2009. - 13 may. - S. 4.

**Bilalov B.** Azərbaycanda turizmin formalaşması və inkişafında Heydər Əliyevin rolu // Mədəni Həyat. - 2013. - may. - № 5. - S. 23-27.

Bölgələrdə mədəniyyət və **turizm**in inkişafına əvəzsiz töhfələr // Mədəniyyət. - 2013. - 21 avqust. - № 58. - S. 8, 9.

**Cabbarlı A.** Turizm sənayesinin inkişafı Azərbaycan dövlətinin prioritet vəzifələrindəndir // Azərbaycan. - 2010. - 14 aprel. - N 78. - S. 3.

**Cansail Y.** Kino və turizm // Mədəniyyət. - 2011. - 27 aprel. - № 5 (x). - S. 11.

**Cəfərov C.** Azərbaycanda turizm təhsili: uğurlar, perspektivlər // Mədəni həyat. - 2012. - № 12. - S. 4, 5.

**Cəfərov C.** Gələcəyin astanasında : Azərbaycanda turizm sənayesinin inkişafı haqqında // Yeni Mədəni-maarif jurnalı. - 2008. - № 1/2. - S. 16-20.

**Cəfərov C.** Ölkənin inkişaf göstəricisi : Azərbaycan Turizm İnstitutu // Mədəni Həyat . - 2014. - № 1. - S. 6-8.

**Cəfərov C.** Turizm sahəsində Azərbaycanın rəqabət imkanları çox yüksəkdir // Mədəniyyət. - 2011. - 27 aprel. - № 5 (x). - S. 9.

**Dünyanın** turizm **təmsilçiləri** Bakıda bir araya gələcəklər : "AITF 2014" sərgisində 38 ölkədən 300-ə yaxın şirkətin iştirakı gözlənilir // Mədəniyyət. - 2014. - 28 mart. - № 22/23. - S. 3.

**Əhmədov Q.** Şimal turizm marşurutu Siyəzəndən keçir : Turizmin inkişafına dair dövlət proqramı haqqında // Azərbaycan. - 2007. - 25 noyabr. - S. 4.

**Ələddinqızı N.** Azərbaycan dünyanın ən gözəl turist ölkələrindən biridir // Səs. - 2018. - 25 oktyabr. - № 202. - S. 7.

**Ələddinqızı N.** Azərbaycan dünyanın ən gözəl turist ölkələri sırasındadır // Səs. - 2019. - 21 dekabr. - № 237. - S. 6.

**Ələddinqızı N.** Beynəlxalq səviyyəli tədbirlər Azərbaycanın turizm potensialını təbliğ etmək baxımından əhəmiyyətlidir // Səs. - 2017. - 7 iyun. - № 100. - S. 5.

**Ələddinqızı N.** Ölkəmizdəki inkişaf turizm sənayesinə böyük təkandır // Səs. - 2017. - 30 avqust. - № 156. - S. 12.

**Ələddinqızı N.** Turizmin inkişafı ölkə iqtisadiyyatına böyük gəlir gətirir // Səs. - 2017. - 10 iyun. - № 103. - S. 10.

**Elektron** turizm **iqtisadiyyatın** inkişafında mühüm rol oynayır // Mədəniyyət. - 2010. - 4 iyun. - N 37. - S. 9.

**Elektron** turizm**: geniş** imkanlar və reallıqlar // Mədəniyyət. - 2010. - 2 iyul. - N 44. - S. 9.

**Əliyev A.** Azərbaycanda turizm inkişaf edir // Azərbaycan. - 2007. - 6 sentyabr. - S.6.

**Əliyev T.** Azərbaycanın turizm potensialı hərəkətə gətiriib // Xalq qəzeti. - 2007. - 17 iyul. - S. 3.

**Əliyeva İ.** Azərbaycanın turizm potensialını dünyaya təqdim edən mədəniyyət layihələri // Azərbaycan : qəzet. - 2017. - 13 yanvar. - № 7. - S. 6.

**Əlizadə Ş.** Azərbaycan turizm sənayesinin inkişafı üçün zəngin ehtiyatlara malikdir // Respublika. - 2013. - 25 dekabr. - № 284. - S. 7.

**Əlizadə Ş.** Azərbaycanda turizm qeyri-neft sektorunun prioritet sahələrindəndir // Respublika. - 2011. - 9 dekabr. - № 266. - S. 1.

**Əlizadə Ş.** Azərbaycanda turizmin inkişafı yeni mərhələdə // Respublika. - 2016. - 3 avqust. - № 166. - S. 1.

**Ərzimanoğlu T.** Azərbaycanın güclü turizm potensialı var // Xalq qəzeti. - 2011. - 12 mart. - № 56. - S. 6.

**Əsədov B.** Kompleks iqtisadi inkişafda turizmin imkanlarından tam yararlanmaq lazımdır : 27 sentyabr Ümudünya Turizm günüdür // Azərbaycan. - 2006. - 27 sentyabr. - S.5.

**Eyyubova G.** Turizmin inkişafı yeni mərhələdə // İki sahil. - 2017. - 19 aprel. - № 67. - S. 9.

**Fərəcova M.** Muzey - arxeoloji kompleks : 2011-ci il Turizm ilidir // Respublika. - 2011. - 5 noyabr. - № 240. - S. 7.

**Fəxriyyə.** Dünya Turizm günü ölkəmizdə də qeyd ediləcək // Mədəniyyət. - 2010. - 24 sentyabr. - N 66. - S. 2.

**Hacılı İ.** Bütün rayonlarımızda turizmin inkişafı üçün imkanlar mövcuddur // Mədəniyyət. - 2010. - 28 aprel. - N 26. - S. 6.

**Hacıyev A.** Azərbaycan turizm ölkəsinə çevrilir : 27 sentyabr Ümumdünya Turizm Günüdür // Respublika. - 2011. - 27 sentyabr. - № 206. - S. 7.

**Hacıyev A.** Azərbaycanda turizm sektoruna maraq ildən-ilə artır // Respublika. - 2011. - 12 may. - № 98. - S. 8.

**Hacıyev A.** Ölkəmizdə turizmin inkişafı yeni inkişaf mərhələsindədir : Bu sahədə həyata keçirilən layihələr, qəbul olunmuş Dövlət proqramları bunu deməyə əsas verir // Respublika. - 2017. - 27 sentyabr. - № 209. - S. 6.

**Hacıyev A.** Turizm sektoru dövlət siyasətinin prioritet istiqamətlərindən biridir : 27 sentyabr Ümumdünya Turizm

Günüdür // Respublika. - 2014. - 27 sentyabr. - № 211. - S. 7.

**Həsənqızı E.** Mədəni dəyərlərimiz : Mədəni-tarixi müəssisələr // Mədəni həyat. - 2012. - № 10. - S. 10-12.

**Hidayətoğlu Y.** Uğurlu başlanğıc : Turizm // Mədəni həyat. - 2012. - № 3/4. - S. 25-28.

Hidayətoğlu, Yaşar. Dünyanı dolaşan mədəniyyətimiz : Böyük Britaniya // Mədəni Maarif. - 2011. - № 12. - S. 77-80.

**Hüseynov F.** "Festival ölkəmizin turizm potensialının tanıdılmasına təkan verir" : Bakıda III Beynəlxalq Turizm Filmləri Festivalı Keçirilir // Mədəniyyət. - 2016. - 3 iyun. - № 43. - S. 3.

**Hüseynov F.** Sən də Azərbaycanı gör : Türkiyə mətbuatında ölkəmizin turizm imkanları haqqında məqalələr dərc olunub // Mədəniyyət. - 2017. - 21 aprel. - № 30. - S. 8.

**Hüseynov F.** Turizm və media: inkişafa aparan yolda birgə fəaliyyət // Mədəniyyət. - 2016. - 13 iyul. - № 53. - S. 3.

**Hüseynov İ.** Turizm və ətraf mühit // Mədəni Həyat . - 2014. - № 3. - S. 6-7.

İDEA ilə Ümumdünya **Turizm** Təşkilatı arasında Anlaşma Memorandumu imzalanıb (17 iyun 2019-cu il) // Xalq qəzeti. - 2019. - 19 iyun. - № 130. - S. 6.

**İmanquliyev B.** Zaman keçdikcə kənd turizmi daha populyar olur // Azərbaycan : qəzet. - 2022. - 15 mart. - № 56. - S. 7.

**İsmiyev A.** Turizm sektoru davamlı inkişaf yolunda // Mədəniyyət. - 2011. - 26 yanvar. - № 5/6. - S. 12.

**Mədəni** turizm **müasir** dövrün reallığıdır // Kaspi. - 2019. - 14-16 dekabr. - № *232. - S. 8.

**Mehdizadə Ş.** Yerli əhalini turizmə necə cəlb etməli : Ekspertlər deyir ki, bu sahədə potensiallı kadrlara ciddi ehtiyac var // Kaspi. - 2020. - 22 yanvar. - № 10. - S. 11.

**Məhəbbətoğlu Q.** Turizm sektoru: Daha böyük hədəflərə doğru // İki sahil. - 2020. - 11 yanvar. - № 4. - S. 13.

**Məhisov S.** Mədəni turizmdə maarifləndirmə problemi // Mədəni həyat. - 2012. - № 11. - S. 22-24.

**Məhisov S.** Mədəni turizmdə maarifləndirmə problemi // Mədəni həyat. - 2012. - № 11. - S. 22-24.

Möhtərəm. Qaxda turizm çiçəklənir // Palitra. - 2007. - 7 sentyabr. - S.7.

**Mükərrəmoğlu M.** 27 sentyabr Ümumdünya Turizm Günüdür // Xalq qəzeti. - 2020. - 27 sentyabr. - № 197. - S. 7.

**Mükərrəmoğlu M**. Azərbaycan mədəniyyəti və turizm davamlı inkişaf yolunda // Xalq qəzeti. - 2016. - 28 yanvar. - № 19. - S. 4.

**Mükərrəmoğlu M.** Azərbaycan turizm üçün çox cəlbedici ölkəyə çevriləcək // Xalq qəzeti. - 2011. - 29 yanvar. - № 21. - S. 8.

**Mükərrəmoğlu M**. Azərbaycan yüksək turizm potensialı olan ölkədir : 27 sentyabr Ümumdünya Turizm Günüdür // Xalq qəzeti. - 2014. - 27 sentyabr. - № 211. - S. 6.

**Mükərrəmoğlu M.** Azərbaycanda turizm infrastrukturu genişlənir və xidmətin səviyyəsi yüksəlir // Xalq qəzeti. - 2017. - 17 dekabr. - № 279. - S. 7.

**Mükərrəmoğlu M.** Azərbaycanda turizmin inkişafının böyük pespektivləri vardır. : 27 sentyabr -Beynəlxalq Turizm Günüdür // Xalq qəzeti. - 2007.-27 sentyabr. - S.5.

**Mükərrəmoğlu M.** Turizmin davamlı inkişaf ili // Xalq qəzeti. - 2018. - 7 yanvar. - № 3. - S. 4.

**Mükərrəmoğlu M.** Turizmin inkişafı Azərbaycanın mühüm strateji hədəflərindəndir / // Xalq qəzeti. - 2014. - 26 oktyabr. - № 233. - S. 5.

**Muradzadə V.** Ali məktəb tələbələrində yaradıcı təfəkkürün inkişaf etdirilməsi // Azərbaycan məktəbi. - 2012. - № 3. - S. 85-90.

**Musa S.** Azərbaycan turizmi inkişaf dövrünü yaşayır // Mədəniyyət. - 2013. - 2 avqust. - № 56. - S. 11.

**Mustafayev S.** Turizmin inkişafında uğurlu mərhələ // Mövqe. - 2019. - 17 yanvar. - № 10. - S. 10.

**Mustafazadə N.** Dövlətimizin turizm siyasəti öz bəhrəsini verir // Respublika. - 2011. - 12 oktyabr. - № 219. - S. 1, 2.

**Nağıyev E.** Turizmin qlobal etik kodeksi // Mədəni Həyat . - 2014. - № 7. - S. 14-15.

**Nəcəfxanlı Ə.** Cənub bölgəsi turizm məkanına çevrilir // Xalq qəzeti. - 2007. - 7 avqust. - S.4.

**Nərimanoğlu M.** Gözəlliklər diyarı Azərbaycanda ekoturizmin inkişafı üçün geniş imkanlar var : 11 yanvar Dünya Qoruqları və Milli Parklar Günüdür // Azərbaycan : qəzet. - 2017. - 20-22 may. - № 5. - S. 7.

**Nərimanoğlu M.** Şəhərlərimiz mədəniyyət paytaxtlarına çevrilir : 2011- ci turizm ilidir // Azərbaycan. - 2011. - 9 iyun. - № 123. - S. 11.

**Nəzərəliyeva P.** Turizmdə kulturoloji amillər // Mədəni Həyat . - 2014. - № 5. - S. 22-25.

**Qaraca B.** Azərbaycan dünyanın turizm mərkəzlərindən birinə çevrilir // Azərbaycan. - 2011. - 2 noyabr. - № 243. - S. 6.

**Qarayev Ə.** Azərbaycan turizminə baxış: 10 illik inkişafın nəticələri : 27 sentyabr Ümumdünya Turizm Günüdür // Azərbaycan. - 2013. - 27 sentyabr. - № 213. - S. 4.

**Qarayev Ə.** Hər an, hər gün, hər il mədəniyyət // Mədəniyyət. - 2010. - 29 yanvar. - N 6-7. - S. 4-7.

**Qarayev Ə.** Özümü kitabsız, mütaliəsiz təsəvvür edə bilmirəm // Mədəniyyət. - 2014. - 3 sentyabr. - № 67. - S. 8. ; 5 sentyabr. - № 68. - S. 8-9.

**Qəhrəmanov M.** Turizm haqqında yeni qanun nə vəd edir? // Mədəniyyət. - 2010. - 16 aprel. - N 23. - S. 8.

**Quliyev H.** Azərbaycanda turizmin inkişafı: tarix və bu gün : 2011 Turizm ili // Mədəniyyət. - 2011. - 3 iyun. - № 40. - S. 10.

**Quliyev L**. Turizm sektoru üçün bacarıqlı kadrlar hazırlanır // Azərbaycan : qəzet. - 2019. - 4 dekabr. - № 269. - S. 10.

**Quliyev R.** Turizm nə deməkdir? // Mədəniyyət. - 2010. - 22 sentyabr. - N 65. - S. 10.

**Rəcəbli H.** Azərbaycanda modern dövlət quruculuğunda turizmin yeri və rolu yüksəlir : 2011-ci il Turizm ilidir // Azərbaycan. - 2011. - 10 avqust. - № 174. - S. 4.

**Rəcəbli H.** Azərbaycanın gələcəyinə qoyulan sərmayə : 27 sentyabr Ümumdünya Turizm Günüdür // Xalq qəzeti. - 2018. - 27 sentyabr. - № 216. - S. 10.

**Respublikamız** turizm **ölkəsi** kimi tanınmalıdır // Azərbaycan. - 2007. - 27 sentyabr. - S.8.

**Rəsulov Q.** Turizmdə hədəfə yaxınlaşırıq // İki sahil. - 2019. - 4 dekabr. - № 224. - S. 15.

**Rüstəmova H.** Turizm bizdə və dünyada // Mədəniyyət. - 2006. - 2 sentyabr. - S.3.

**Rzalı R.** Ölkədə həm yay, həm də qış turizmi üçün geniş imkan var : 2011-ci il Turizm ilidir // Azərbaycan. - 2011. - 16 fevral. - № 36. - S. 7.

**Rzalı R.** Turizm Azərbaycanın qarşısında yeni üfüqlər açır // Azərbaycan. - 2012. - 14 yanvar. - № 9. - S. 4.

**Rzalı R.** Turizm dövlətin iqtisadi gücünü təmin edən çox mühüm gəlir sahəsidir // Azərbaycan. - 2008. - 29 iyul. - S. 2.

**Salmanlı R.** "Açıq kitabxana" layihəsi və səyyar kitabxana xidməti // Azərbaycan : qəzet. - 2016. - 23 avqust. - № 183. - S. 5.

**Salmanlı R.** Abidələrə qayğı Şəmkirin turizm məkanına çevriləcəyinə zəmin yaradır // Azərbaycan. - 2008. - 17 iyul. - S. 6.

**Salmanlı R.** Azərbaycan dünyada həm də turistlərin maraq göstərdiyi ölkə kimi tanınır : 27 sentyabr Ümumdünya Turizm Günüdür // Azərbaycan : qəzet. - 2017. - 27 sentyabr. - № 210. - S. 6.

**Salmanlı R.** Azərbaycan dünyada həm də zəngin turizm ölkəsi kimi tanınır : 27 Sentyabr Ümumdünya Turizm Günüdür // Azərbaycan : qəzet. - 2021. - 26 sentyabr. - № 206. - S. 11.

**Salmanlı R.** Azərbaycana gələn turistlərin sayı artdıqca gəlirlər də çoxalır // Azərbaycan : qəzet. - 2019. - 24 sentyabr. - № 210. - S. 6.

**Salmanlı R.** Azərbaycanda turizmin inkişafı dünyanın diqqət mərkəzindədir // Azərbaycan : qəzet. - 2019. - 4 dekabr. - № 269. - S. 10.

**Salmanlı R.** Ölkəmiz dünya turizm həvəskarlarının xidmətindədir // Respublika. - 2019. - 8 iyun. - № 123. - S.6.

**Salmanlı R.** Qarabağın zəngin turizm potensialı var // Azərbaycan : qəzet. - 2022. - 6 fevral. - № 27. - S. 6.

**Salmanlı R.** Turistlər Azərbaycana xüsusi maraq gostərirlər // Azərbaycan : qəzet. - 2020. - 1 mart. - № 47. - S. 6.

**Salmanlı R.** Turistlərin ən çox üz tutduğu məkan // Azərbaycan : qəzet. - 2020. - 9 fevral. - № 28. - S. 5.

**Salmanlı R.** Turizmin inkişafına dövlət qayğısı // Azərbaycan : qəzet. - 2019. - 17 avqust. - № 178. - S. 4.

**Şamıyev F.** Turizm və kino // Mədəniyyət. - 2010. - 28 aprel. - N 26. - S. 14.

**Səmədov N.** Azərbaycanda turizmin inkişaf perspektivleri // Respublika. - 2014. - 21 avqust. - № 179. - S. 3.

**Sevinc.** 2011-ci ildə Azərbaycan dünyada turizm ölkəsi kimi tanınıb // Yeni Azərbaycan. - 2012. - 3 fevral. - № 20. - S. 2.

**Şıxəmmədov V.** Azərbaycanda turizmin inkişaf perspektivləri // Xalq qəzeti. - 2015. - 18 yanvar. - № 13. - S. 6.

**Şükürov K.** Azərbaycanın tarixi turizmi və onun perspektivləri // Xalq qəzeti. - 2022. - 9 yanvar. - № 4. - S. 3.

**Sultanova M.** Azərbaycan bölgələri gözəl turizm məkanıdır // Mədəniyyət. - 2014. - 12 mart. - № 19. - S. 7.

**Tahirli G.** Ədəbiyyat və turizm : hər ikisi üçün yeni formula // Mədəniyyət. - 2010. - 10 fevral. - N 10. - S. 7.

Turizm **sahəsində böyük** nəticələr gözləyirik : Əsas məsələ **turizm** sənayesini yaratmaqdır. // Mədəniyyət. - 2016. - 13 iyul. - № 53. - S. 2.

Turizm **tarixinə qısa** ekskurs // Mədəniyyət. - 2011. - 27 aprel. - № 5 (x). - S. 13. - İlk kütləvi **turizm**dən başlayaraq bu günku **turizm** tarixinin inkişaf mərhələləri

**Vahidoğlu O.** Azərbaycanın turizm potensialı və ondan istifadə imkanları // İki sahil. - 2019. - 9 noyabr. - № 208. - S. 14.

**Vəliyev M.** Azərbaycan dünya turizm sahəsində parlayan ulduzdur // Respublika. - 2013. - 24 sentyabr. - № 209. - S. 6.

**Vəliyev Y.** İnkişafa istiqamətlənən təhsil : Azərbaycan Turizm İnstitutu // Mədəni həyat. - 2012. - № 10. - S. 2-3.

**Yusifli R.** Azərbaycan turizm sahəsində daha bir beynəlxalq mükafata layiq görülüb // Respublika. - 2019. - 3 dekabr. - № 267. - S. 5.

**Yusifli R.** Azərbaycanda turizmin inkişafı üçün potensial imkanlar genişdir : 27 sentyabr Ümumdünya Turizm Günüdür // Respublika. - 2009. - 27 sentyabr. - N 214. - S. 4.

**Yusifli R.** Müasir mədəniyyət tarixində və turizm sahəsində yeni səhifələr // Respublika. - 2016. - 29 yanvar. - № 19. - S. 2.

**Yusifli R.** Ölkəmizdə turizm sənayesinin inkişafı diqqət mərkəzindədir // Respublika. - 2019. - 10 sentyabr. - № 197. - S. 4.

**Yusifli R.** Turizm ölkə iqtisadiyyatında gəlir gətirən sahələrdən birinə çevrilir // Respublika. - 2008. - 13 avqust. - S. 4.

**Yusifli R.** Turizm sektorunun inkişafı bütün dünya üçün böyük əhəmiyyət kəsb edir : 27 sentyabr Ümumdünya Turizm günüdür // Respublika. - 2007. - 27 sentyabr. - S. 6.

Zümrüd. Azərbaycan perspektivli turizm ölkəsidir // Səs. - 2016. - 2 mart. - № 40. - S. 10.

Zümrüd. Turizm iqtisadiyyatının əsas inkişaf dayaqlarındandır // Səs. - 2019. - 25 yanvar. - № 16. - S. 11.

Zümrüd. Beynəlxalq tədbirlər turizmin inkişafını gücləndirir // Səs. - 2017. - 20 may. - № 89. - S. 10

# Ümumdünya Turizm Günü

**(metodik vəsait)**

**Komputer yığımı**
**və dizayn:** **Ruhiyyə Məmmədli**

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail:** info@clb.az.

**İnternet ünvanı: www.clb.az**